RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 230 (9397) 21 OKTYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## 40 yol ötürücüsü və körpü, 52 alt keçid...

### Bakı-Quba-Rusiya Federasiyası avtomobil yolu ən müasir standartlara uyğun inşa olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

→ 2

## Böyük Qayıdışın təntənəsi



### Yenidən qurulan şəhər və kəndlərdə indiyədək 2896 keçmiş məcburi köçkün məskunlaşıb

İşğal dövründə dağıdılıb viran qoyulan torpaqlarımız sürətlə bərpa edilir. Ötən 3 ilin ən böyük həqiqətlərindən biri budur ki, güclü iqtisadiyyata malik Azərbaycan postmüharibə dövründə qarşıya qoyduğu bütün məqsədləri, xüsusilə də Böyük qayıdış proqramını uğurla reallaşdırmaq iqtidarındadır.

Keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın və Füzuliyə keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər sürətlə davam etdirilir.

→ 8

## Azərbaycan regional sülh gündəliyini müəyyənləşdirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunda dövlət katibi köməkçisinin müavini Coşua Hakı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə regionda sülhün və sabitliyin təmin edilməsi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi ətrafında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi və tezliklə imzalanması ilə bağlı niyyətini bir daha ifadə etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Bakıda "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda konfrans keçirilib

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə oktyabrın 20-də Bakıda "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına **müraciətini** oxuyub *(Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasovun moderatorluğu ilə keçirilən konfransda qurumun fəaliyyətinə və kolonializmlə mübarizəyə dair hazırlanmış videoçarx təqdim edilib.

Videoçarxın nümayişindən sonra konfransda çıxış edən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) **Səbinə Əliyeva** bildirib ki, hazırda dünyanın müxtəlif bölgələrində müstəmləkəçilik problemi ilə üzləşmiş bir sıra dövlətlər hələ də öz azadlıqları və ədalətin bərpası uğrunda mübarizə aparmaqda davam edirlər. Təəssüf doğuran məqam odur ki, beynəlxalq təşkilatlar və bütövlükdə dünya ictimaiyyəti bu ədalətsiz davranışa, insan hüquqlarının kütləvi pozulması hallarına biganə qalırlar. Belə ikili standartlardan əziyyət çəkən ölkələrdən biri də Azərbaycandır.

"Əfsuslar olsun ki, özünü demokratiyanın beşiyi hesab etməsinə baxmayaraq, neokolonializm siyasəti həyata keçirən Fransa kimi ölkələr uzun illərdir beynəlxalq hüququn hamılıqla qəbul edilmiş ümumbəşəri prinsiplərinə hörmətsizlik nümayiş etdirərək insan hüquqlarını kobud şəkildə pozmaqda, xalqlar arasında barışın əldə olunmasına, sülh və əmin-amanlıq mühitinin yaranmasına mane olmaqda davam edirlər.

→ 4

## Dövlət ehtiyatlarının tənzimlənməsinin hüquqi bazası yaradılır

Bu gün Azərbaycanın öz tarixinin ən şərəfli dövrünü yaşadığını deyən deputatlar Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edildiyini vurğulayıblar. Çıxışlarda Azərbaycanın qələbəsini qəbul etməyən bəzi siyasi dairələrin olduğu, AŞ PA-da, Avropa Parlamentində, habelə Niderland, İspaniya, Avstriya kimi ölkələrin parlamentlərində qərəzli qətnamə və tövsiyə sənədlərinin qəbul edildiyi təəssüf hissi ilə qeyd olunub. Bu siyasi dairələrin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqətə uyğun olmayan, ədalətsiz mövqe nümayiş etdirdikləri bildirilib. Söylənilib ki, ölkəmiz tərəfindən lokal xarakterli antiterror tədbirləri, erməniəsilli mülki sakinlərin reinteqrasiyası ilə bağlı atılan addımların təhrif olunması qəbuledilməzdir.

Deputatlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rolundan, ölkəmizin həyata keçirdiyi beynəlxalq infrastruktur layihələrin əhəmiyyətindən bəhs ediblər.

→ 3

## Qatillər haqq-ədalət qarşısında cavab verirlər

### Tələkələr Bakıda istintaq təcridxanasında layiq olduqları cəzanı gözləyirlər

→ 5

## Erməni tribunasına çevrilən təşkilat

### Səlibçi hücumları Avropa Parlamentinə yalnız utanc gətirir

→ 9

## Bakıda "çay qonaqlığı"

### Nəhayət ki, "qədim erməni xəstəlikləri"nin müalicəsi tapıldı

Arkadi Qukasyanla Bako Sahakyan da "Azərçay" - əsl çay tamarzısı imişlər.

Neçə dəfə paytaxtdakılara eşitdiriblər ki, Bakıda, dəniz qırağında çay içmək istəyirlər.

Heç kim onları adam yerinə qoyub bir stəkan çay verməyib.

Onlar da acığa düşərək qondarma qurumlarındakı "prezidentlik"lərindən imtina ediblər.

Separatçı qurum oktyabrın 9-da özünü buraxanda Arkadi ilə Bakonun da bəxti açıldı.

Yenə də sağ olsun bizim DTX-dəki igidlərimiz.




Gedib onları səssizcə maşına qoyaraq Bakıya gətirdilər!

İndi sabiq "prezidentlər" dəniz qırağında olmasa da, dəniz havasında doyunca "Azərçay" - əsl çay içirlər.

Onların da yerləri rahatdır.

❖ ❖ ❖

Arayik Harutyunyan isə çayxorluğunun yox, dilinin bəlasına düşdü.

Başından böyük yediyi qələt onun da Bakıya "çay qonaqlığı"na gətirilməsinə səbəb oldu!

Düzdü, Xankəndidə yekə-yekə, lovğalana-lovğalana gəzirdi.

Bakıya gətiriləndə isə qəddi bükülmüşdü.

Əgər igidlərimiz qoluna girməsəydilər, bəlkə də yerə yıxılardı.

→ 5

## "F-16"lar Azərbaycan səmasındadır

"Mustafa Kamal Atatürk - 2023" təlimində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) F-16 təyyarələri oktyabrın 20-də ölkəmizə gəlib.

Azərbaycan-Türkiyə birgə taktiki təlimi cari ilin oktyabrın 23-25-də Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və azad edilmiş ərazilərimiz də daxil olmaqla bir neçə istiqamətdə keçiriləcək.



# Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir

## "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə salamlayıram. Müxtəlif qitələri təmsil edən 14 ölkə, habelə ədalət uğrunda mübarizə aparan ərazilərin təmsilçilərinin Bakıya toplaşaraq, XXI əsrdə təəssüf ki, hələ də davam edən kolonializm siyasətini pisləməsi və onun aradan qaldırılması istiqamətində sistemli və ardıcıl iş aparması və təşkilatlanması sevindirici haldır.

Bildiyiniz kimi, dörd il öncə, 25 oktyabr 2019-cu ildə Azərbaycan Respublikası Qoşulmama Hərəkatı ölkələrinin yekdil dəstəyi ilə Hərəkata sədrliyi qəbul etdi. Bəşəri dəyərlərin təbliğinə xidmət edən Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul edərkən mən prioritetlərimi və fəaliyyətimi tarixi Bandunq prinsipləri üzərində quracağımı bəyan etdim. Bandunq Konfransı zamanı müzakirə edilən məsələlərdən biri də kolonializmə qarşı mübarizə olmuşdur. Həmin konfrans iştirakçıları qeyd etmişdilər ki, "Xalqların xarici köləliyə, hökmranlığa və istismara məruz qalması əsas insan hüquqlarının inkar olunmasıdır, BMT-nin Nizamnaməsinə ziddir və beynəlxalq sülh və əməkdaşlığın təşviqinə maneə törədir. Kolonializm bütün təzahürləri ilə tez bir zamanda aradan qaldırılmalı olan bir şərdir".

Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən, kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır.

Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur.

XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir.

Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmiş, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir.

26 mart 2021-ci ildə tarixçilərdən ibarət "Ruandada tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul Komissiya" tərəfindən Fransa Prezidentinə təqdim edilmiş "Fransa, Ruanda və Tutsinin soyqırımı (1990-1994)" adlı sənəddə 1994-cü ildə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünün qətlə yetirilməsində Fransanın böyük məsuliyyət daşıdığı vurğulanmışdır.

Fransa həm də dünyada ən çox mina istifadə etmiş ölkələrdən biridir. Ancaq Əlcəzair ərazisində 5 milyondan artıq mina basdırılmışdır. Nəticədə Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutur. Bu siyahıda Fransadan sonra onun yaxın müttəfiqi Ermənistan gəlir. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində basdırdığı minalar nəticəsində təkcə son 3 ildə 340-a yaxın azərbaycanlı mina qurbanı olub. Onların arasında mülki şəxslər də var. Bu iki ölkəni bir-birinə belə sıx bağlayan səbəblərdən biri də hər ikisinin mina terroru ilə məşğul olmaq təcrübəsidir.

Parisin İnsan Muzeyində müstəmləkə müharibələrində XIX əsrdə qətlə yetirilən döyüşçülərin 18 min ədəd kəllə sümüyü saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümükləri arasında əlcəzairli döyüşçülərin də kəllə sümükləri var. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbi Fransa tərəfindən hələ də tam yerinə yetirilmir. XXI əsrdə dünyanın çox az dövlətində bu cür təfəkkürə rast gəlmək mümkündür.

Əsrlər keçsə də, təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam etməkdədir. Bu konfransa toplaşan dənizaşırı ərazilərin xalqları uzun illərdir müstəqillik uğrunda mübarizə aparırlar. Kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır.

Fransız Qvianasında sosial vəziyyət getdikcə pisləşir, əhalinin təxminən yarısı yoxsulluq astanasındadır, işsizlik səviyyəsi hər il artır. Burada təbii sərvətlər talan edilir və torpaqların 90%-i Fransa dövlətinin mülkiyyətindədir.

Martinika və Qvadelupa iki böyük fəlakətlə üz-üzədir. Yerli əhali gizli və qanunsuz məskunlaşma yolu ilə assimilyasiya edilir. Vaxtilə xlordekon pestisidinin istifadəsi təbii ekosistemləri və əhalini zəhərləyib, yerli sakinlər bu gün də onun onkoloji fəsadlarını yaşayırlar.

Fransa Qəmər Adaları İttifaqının Mayot adası üzərində suverenliyini tanımaqdan imtina edir. Qoşulmama Hərəkatı öz sənədlərində Qəmər Adaları İttifaqının Mayot adası üzərindəki danılmaz suverenliyini daima təsdiqləyir.

Yeni Kaledoniyada əhalinin yarısının iştirakı olmadan referendum keçirilir və bu minvalla Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququ əlindən alınır.

Etnik azlıqlar konsepsiyasını qəbul etməyən Fransa Korsika dilini qadağan edir. BMT bunu ayrı-seçkilik və beynəlxalq hüququn pozulması kimi qiymətləndirmişdir. Riyakar və ikili standartlı siyasət yürüdən Fransa, eyni zamanda regionumuzda milli azlıqların müdafiəçisi kimi özünü təqdim etməyə çalışır.

Biz Fransada neokolonializm meyilləri ilə paralel olaraq irqçilik və islamofobiyanın da geniş vüsət aldığını müşahidə edirik. Bu gün burada təmsil olunan insanların bəziləri müxtəlif formada təzyiq və ayrı-seçkiliyə, irqçi hücumlara məruz qalır. Daxildə bu cür narahatedici və təhlükəli meyillərlə mübarizə aparmalı olan Fransa hakimiyyəti başqa dövlətlərə dərs keçməyə, digər ölkələrin daxili işlərinə qarışmağa cəhd edir. Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir. Sizin 2023-cü ilin 6 iyulunda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Bakıda keçirilən Nazirlər Toplantısı zamanı, daha sonra 22 sentyabrda Nyu Yorkda BMT Baş Assambleyasının qərargahında, bu gün isə yenidən Bakıda bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən kolonializm, onun fəsadları və neokolonializmlə mübarizəyə həsr olunmuş tədbirdə iştirakınız Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi bu məsələyə göstərdiyi dəstəyinin əyani göstəricisidir.

Neokolonializmlə mübarizə mövzusunun bütün mümkün platformalar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması olduqca vacibdir. Bu xüsusda, BMT Baş Assambleyasının 4-cü Komitəsinin (siyasi və dekolonizasiya məsələləri) fəaliyyəti daha da canlandırılmalıdır.

Bugünkü konfrans kolonializm, onun fəsadları və neokolonializmlə mübarizə ilə bağlı qlobal gündəlikdə dayanan çağırışlar və imkanların müzakirəsi üçün əlverişli fürsətdir. İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirələr kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə "kolonializmdən azad dünya" miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2023-cü il*

# 40 yol ötürücüsü və körpü, 52 alt keçid...

## Bakı-Quba-Rusiya Federasiyası avtomobil yolu ən müasir standartlara uyğun inşa olunub











*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun təməli 2017-ci ilin dekabrında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı yolun təməlinin qoyulduğu ilk gündən başlayaraq, inşaat prosesinin gedişi ilə şəxsən və yerində maraqlanıb, tikinti işlərinin ən yüksək standartlara uyğun icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını verib.

Bildirildi ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq, Rusiya sərhədinədək olan 150 kilometrlik hissəsi birinci texniki dərəcəyə uyğun inşa edilib.

Magistralın 129 kilometrlik hissəsi ödənişli yol kimi müəyyənləşdirilib və Tarif Şurası tərəfindən gediş tarifləri təsdiq edilib. Gediş üçün ödənişin məbləği nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla müəyyənləşdirilib. Ödənişli avtomobil yolu 4 zolaqlıdır.

Ödənişli yoldan istifadə tarifləri yeni müəyyən olunduğu üçün hazırda həmin tariflərin ödəniş sisteminə inteqrasiyası həyata keçirilir. İnteqrasiya yekunlaşdıqdan sonra ödəniş sisteminin proqram təminatı test ediləcək. Sınaqlar başa çatdıqdan sonra yol ümumi istifadəyə veriləcək. Qeyd olunan işlərin qısa müddət ərzində yekunlaşdırılması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, bu magistral yolun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nəzarəti altında 5 hissə üzrə həyata keçirilib. Yolboyu 40 yol ötürücüsü və körpü, 52 alt keçid, 6 ödəmə və yükə nəzarət məntəqəsi, 2 mindən çox yol nişanı və məlumat lövhəsi quraşdırılıb. Həmçinin hər hansı maneənin yola çıxmasının qarşısını almaq üçün tədbirlər görülüb. O da bildirildi ki, yeni yol mövcud yoldan 13 kilometr qısadır.

Dövlətimizin başçısı ödəmə sistemi haqqında videoçarxa baxdı.

Bildirildi ki, ödənişli yoldan istifadə xüsusi çip yerləşdirilən kart vasitəsilə həyata keçiriləcək. Bu kartı yolun giriş və çıxışlarından, yaxın gələcəkdə isə şəhər və rayonlarda müxtəlif satış nöqtələrindən əldə etmək mümkün olacaq.

Kartın 2 formada olması nəzərdə tutulub. Belə ki, yoldan daimi istifadə edən sürücülər daimi kart, vaxtaşırı istifadə edənlər isə müvəqqəti və ya birdəfəlik kart əldə edəcəklər.

Ödənişli yol sistemi sürücülərə adi və dayanmadan keçid zolaqlarından istifadə etmək imkanı verəcək. Adi zolağa daxil olan sürücü ödəniş məntəqələrində keçid üçün kartı əldə edərək avtomobilin ön şüşəsinə yerləşdirir və daha sonra ödənişli yoldan istifadə etmək hüququna sahib olur. Dayanmadan keçid zolağı isə sürücülərə ödəniş məntəqələrində sürəti azaltmadan və dayanmadan keçmək imkanı verir. Bunun üçün sürücüdə əvvəlcədən əldə edilmiş xüsusi çipkart və yetərli ödəniş balansının olması kifayətdir. Bu zolaqlarda xüsusi nömrəoxuma kameraları, təhlükəsizlik kameraları, avtomobilləri klassifikasiya etməyə imkan verən avadanlıqlar və digər innovativ texnoloji həllər tətbiq olunub, bütün məntəqələrdə çəkiyə nəzarət və yolun dayanıqlılığını təmin etmək məqsədilə elektron tərəzi sistemi də quraşdırılıb. Gələcəkdə avtomatik ödənişlər və ya QR kodları ilə mobil ödənişlər də mümkün olacaq.

Ödənişli yoldan keçid kartının ilk nümunəsi Prezident İlham Əliyevə təqdim olundu.

Qeyd edək ki, son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir.

Bu yolun istifadəyə verilməsi, həmçinin beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji əhəmiyyət daşıyan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 11 aprel tarixli 149 nömrəli və "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında və "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 22 sentyabr tarixli 1159 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365, № 6, maddə 637; 2015, № 3, maddə 272; 2018, № 5, maddə 899; 2020, № 9, maddə 1149; 2021, № 6 (I kitab), maddə 588, № 8, maddə 926; 2022, № 8, maddə 859; 2023, № 7, maddələr 944, 957) 3-cü hissəsində "200" rəqəmləri "220" rəqəmləri ilə və "40" rəqəmləri "60" rəqəmləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında və "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli 1159 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1149; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 avqust tarixli 2293 nömrəli Fərmanı) 2-ci hissəsində "40" rəqəmləri "60" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 oktyabr 2023-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 372 QƏRAR Bakı şəhəri, 18 oktyabr 2023-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 957; 2006, № 7, maddə 647, № 9, maddə 822; 2008, № 5, maddə 432, № 8, maddə 786; 2013, № 6, maddə 737; 2014, № 1, maddə 69; 2015, № 11, maddə 1418; 2019, № 1, maddə 155; 2022, № 4, maddə 389, № 8, maddə 1022) ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nın 6.1-ci bəndinə "Energetika Nazirliyinin" sözlərindən sonra "və Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Milli Məclisin iclasında

# Dövlət ehtiyatlarının tənzimlənməsinin hüquqi bazası yaradılır

Oktyabrın 20-də Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclas keçirilib. Əvvəlcə, cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədri Zahid Oruc, deputatlardan Razi Nurullayev, Emin Hacıyev, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Musa Qasımlı, Azər Badamov, Naqif Həmzəyev, Vüqar Bayramov, Azay Quliyev çıxış ediblər.





Bu gün Azərbaycanın öz tarixinin ən şərəfli dövrünü yaşadığını deyən deputatlar Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edildiyini vurğulayıblar. Çıxışlarda Azərbaycanın qələbəsini qəbul etməyən bəzi siyasi dairələrin olduğu, AŞ PA-da, Avropa Parlamentində, habelə Niderland, İspaniya, Avstriya kimi ölkələrin parlamentlərində qərəzli qətnamə və tövsiyə sənədlərinin qəbul edildiyi təəssüf hissi ilə qeyd olunub. Bu siyasi dairələrin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqətə uyğun olmayan, ədalətsiz mövqe nümayiş etdirdikləri bildirilib. Söylənilib ki, ölkəmiz tərəfindən lokal xarakterli antiterror tədbirləri, erməniəsilli mülki sakinlərin reinteqrasiyası ilə bağlı atılan addımların təhrif olunması qəbuledilməzdir.

Deputatlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rolundan, ölkəmizin həyata keçirdiyi beynəlxalq infrastruktur layihələrin əhəmiyyətindən bəhs ediblər. Bildirilib ki, ölkəmizə qarşı bəzi dairələrin nümayiş etdirdiyi qərəzli, ədalətsiz mövqeyə baxmayaraq, Azərbaycan regionda davamlı sülhün təmin olunması istiqamətində səylərini uğurla davam etdirir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə Azərbaycan bayrağını ucaltması buna bariz misaldır. Bu gün işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır, "Böyük qayıdış" proqramı uğurla həyata keçirilir.

Milli Məclisin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 12 məsələnin daxil edildiyini, ilk 9 məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, sənədin ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunduğunu diqqətə çatdırıb, məcəllənin 12 fəsil, 84 maddədən ibarət olduğunu deyib.

Tahir Mirkişili qeyd edib ki, sənədin qəbulu inhisara qarşı mübarizə, qiymətlərin optimallaşdırılması, bazarda haqlı rəqabətin təmin olunması baxımından əhəmiyyətlidir. Komitə sədri bildirib ki, layihədə bir sıra yeniliklərin əsası qoyulub. Belə ki, yeni çağırışlara uyğunlaşmaq məqsədi ilə sənədə nou-hau, mühüm əhəmiyyətli resurs, müvafiq bazar, eksklüziv və selektiv təchizat sistemləri, uyğunlaşdırılmış hərəkətlər, şaquli və üfüqi sazişlər, bazar payının 50 faizini keçən hökmran mövqe, yüksək və aşağı inhisar qiymətləri, rəqabət komissiyası, rəqabət orqanı və digər anlayışlar daxil edilib. Qanun layihəsində rəqabət sahəsində bazar subyektlərinin vəzifələri və hüquqları, rəqabəti məhdudlaşdıran sazişlər, haqsız rəqabət, rəqabət qanunvericiliyinə əməl edilməsinə görə dövlət nəzarəti tədbirləri, rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər məsələlər öz əksini tapıb.

Komitə sədri ötən müzakirələrdən sonra məsələ ilə bağlı komitəyə bir çox təklif, rəy və şərhlərin daxil olduğunu, həmin təkliflərin geniş müzakirədən sonra bəzilərinin məqbul hesab edildiyini və onların qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırma ərəfəsində olduğunu söyləyib.

Qeyd edilib ki, Rəqabət Məcəlləsinin qəbul edilməsi ilə üç qanunun - "Haqsız rəqabət haqqında", "Antiinhisar fəaliyyəti haqqında" və "Təbii inhisarlar haqqında" qanunların ləğv edilməsi nəzərdə tutulub.

Bildirilib ki, təqdim edilən Rəqabət Məcəlləsinin qəbulu ölkə iqtisadiyyatının inkişafına, haqlı rəqabətin təmin edilməsinə, sahibkarların mənafelərinin qorunmasına, dövlət-sahibkar etimad mühitinin güclənməsinə xidmət edəcək.

Məsələ ilə bağlı müzakirələrdə deputatlar Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Bəhruz Məhərrəmov qeyd və təkliflərini diqqətə çatdırıblar.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev çıxışlarda səslənən fikirlərə münasibət bildirdikdən sonra, qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. O, sənədin birinci oxunuşda müzakirəsi zamanı layihəyə müsbət münasibətin bildirildiyini söyləyib və layihənin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vəzifəsini "Dövlət qulluğu haqqında" Qanunda təsnifləşdirməklə həmin vəzifəni yerinə yetirən şəxslərin müvafiq təsnifat vəzifələri üzrə dövlət qulluqçularına aid hüquq və təminatlardan istifadə etmək, vəzifələri yerinə yetirmək məqsədi ilə hazırlanıb.

Komitə sədri Siyavuş Novruzov fikirlərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) də təqdim edib. Bildirib ki, "Dövlət qulluğu haqqında" Qanuna təklif olunan dəyişikliklər dövlət qulluğunun xüsusi növündə qulluq keçən şəxslərin xüsusi, hərbi, diplomatik rütbələrinin uyğunlaşdırılması qaydalarını tənzimləmək məqsədi ilə hazırlanıb. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"yə təklif olunan dəyişikliklər isə miqrasiya orqanlarında qulluq edənlərin hüquqi vəziyyətinin və iş şəraitinin yaxşılaşdırılmasına yönələn dəyişikliklərdir.

Bu məsələ ilə bağlı deputat Vüqar Bayramov bəzi qeydlərini açıqlayıb. Əli Hüseynli səsləndirilən fikirlərə aydınlıq gətirdikdən sonra, qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti beş məsələsinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və məzmunca bir-birinə yaxın olduğunu diqqətə çatdırıb.

Spiker bu məsələlərin Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrinin olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə həmin məsələləri təqdim edib. O, qanun layihələri barədə birinci oxunuşda ətraflı məlumat verildiyini, ötən dövr ərzində komitəyə hər hansı rəy və təklifin daxil olmadığını söyləyib, sənədlərin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Müzakirələrdə deputat Fazil Mustafa təqdim edilən məsələlər barədə fikirlərini açıqlayıb. Əminə Ağazadə qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra, 5 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Növbəti məsələ - Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. O, sənədin dəqiqləşdirmə xarakteri daşıdığını, müzakirələr zamanı sual doğuran heç bir məsələnin olmadığını, konkret maddələrlə bağlı hər hansı təklifin irəli sürülmədiyini bildirib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 3 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (birinci oxunuş) təqdim edib. O, sənədin ölkə Prezidenti tərəfindən Milli Məclisə daxil olduğunu söyləyib.

Komitə sədri dövlət ehtiyatlarının formalaşması və onların idarə edilməsinin vacibliyini qeyd edərək, ölkə Prezidentinin 2021-ci il 7 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradıldığını bildirib. O, agentliyin dövlət və səfərbərlik ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən orqan olduğunu deyib. Strateji əhəmiyyət kəsb edən bu sahənin tənzimlənməsində hüquqi bazanın kifayət qədər inkişaf etdirilmədiyini və bunu nəzərə alaraq yeni qanunun hazırlandığını söyləyib.

Diqqətə çatdırılıb ki, qanun layihəsi 4 fəsil, 14 maddədən ibarətdir. Layihə dövlət ehtiyatlarının təyinatını, hüquqi statusunu, sistemini, dövlət ehtiyatında olan malların tədarükünü, yerləşdirilməsini, saxlanılmasını və buraxılmasını, habelə nəzarət və hesabatlılıq mexanizmlərini özündə ehtiva edir.

Bildirilib ki, sənəddə dövlət ehtiyatları strateji, fövqəladə və səfərbərlik ehtiyatları şəklində müəyyən edilib, onların hər birinin formalaşdırılması və idarə edilməsi mexanizmləri təsbit olunub. İlk dəfə olaraq, dövlət ehtiyatlarının formalaşdırılmasında və idarə edilməsində dövlət-özəl sektor əməkdaşlığı öz əksini tapıb.

Qanun layihəsində strateji əhəmiyyətli mallar və dövlət ehtiyatlarının nomenklaturası, dövlət ehtiyatları sahəsində dövlətin vəzifələri, dövlət qurumlarının dövlət ehtiyatları ilə bağlı fəaliyyəti barədə müddəalar yer alıb. Layihədə, dövlət ehtiyatlarının yaradılması və idarəedilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsi, dövlət ehtiyatları üçün malların tədarükü, dövlət ehtiyatlarının yerləşdirilməsi və saxlanılması, dövlət ehtiyatlarına aid olan malların buraxılması və onların uçotu, bu sahədə hesabatlılıq və nəzarət məsələləri müəyyən edilir.

Qeyd olunub ki, layihənin hazırlanmasında əsas məqsəd ölkədə strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizat zəncirinin qurulması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, daxili bazarın qısa müddətli mənfi təsirlərə davamlılığının artırılması, habelə dövlət ehtiyatlarının yaradılması, saxlanılması və idarə edilməsi sahəsində hüquqi, iqtisadi əsasları müəyyən etməkdir.

Parlamentin komissiya sədri Eldar Quliyev, deputatlar Etibar Əliyev, Vüqar İskəndərov, Aydın Hüseynov, Fəzail Ağamalı layihə barədə fikirlərini, qeyd və təkliflərini söyləyiblər.

Komitə sədri Tahir Mirkişili səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra, qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

Bildirilib ki, qeyd olunan qanunlara təklif edilən dəyişikliklər "Dövlət ehtiyatları haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb. Sənəddə "Dövlət ehtiyatları haqqında" Qanunla tənzimlənən məsələlər layihədə adıçəkilən qanunlardan çıxarılır, habelə bir sıra terminlərin dəqiqləşdirilməsi həyata keçirilir.

Komitə sədri Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Əli Hüseynli Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

İclasda son olaraq "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) müzakirə edilib. Sənədin ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edildiyini deyən komitə sədri Tahir Mirkişili parlamentin spikeri Sahibə Qafarovanın təşəbbüsü ilə cari il sentyabrın 14-də bir qrup deputatın Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinə səfər etdiyini, aviasiya sənayesinin inkişafının vacibliyi, bu sahədə AZAL-ın planları, sərnişinlərin təhlükəsiz və rahat uçuş şəraiti, bilet qiymətlərinin formalaşması və digər mövzular ətrafında geniş müzakirələrin aparıldığını bildirib.

O, hazırda 2005-ci ildə qəbul edilən "Aviasiya haqqında" qanunun qüvvədə olduğunu qeyd edib. Keçən müddət ərzində aviasiya sahəsində texnoloji yeniliklərin tətbiq edildiyini və bu sahənin tənzimlənməsinə ehtiyac duyulduğunu nəzərə alaraq, yeni qanunun qəbul edilməsinə ehtiyac olduğunu söyləyib.

Bildirilib ki, 15 fəsil, 68 maddədən ibarət olan qanun layihəsi Azərbaycanın hava məkanından istifadəni və aviasiya sahəsində fəaliyyəti tənzimləyir, aviasiyada təhlükəsizliyin, o cümlədən dövlətin müdafiəsinin, əhalinin və iqtisadiyyatın hava daşımaları və aviasiya işləri ilə əlaqədar ehtiyaclarının təmin edilməsi üçün həyata keçirilən tədbirlərin hüquqi və təşkilati əsaslarını müəyyən edir. Qanun Azərbaycanda hava məkanından istifadəyə dair münasibətləri, respublikamıza məxsus hava gəmilərinin Azərbaycanın hava məkanından kənarda istismar edilməsi zamanı yaranan münasibətləri, həmçinin xarici dövlətə məxsus hava gəmilərinin Azərbaycanın hava məkanında uçuş əməliyyatlarını həyata keçirməsi zamanı yaranan münasibətləri tənzimləyir.

Sənəddə bildirilir ki, Azərbaycan Respublikasında aviasiya - mülki, dövlət və eksperimental aviasiyaya bölünür. Mülki və eksperimental aviasiyaya aid hava gəmiləri, aerodromlar, hava limanları, texniki və uçuşların təşkili üçün zəruri olan vasitələr dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər. Dövlət aviasiyasına aid hava gəmiləri, aerodromlar, hava limanları, texniki və uçuşların təşkili üçün zəruri olan vasitələr, habelə hava hərəkətinin təşkili sisteminin obyektləri dövlət mülkiyyətidir.

Layihədə uçuşların təhlükəsizliyini və aviasiya təhlükəsizliyini təmin etmək, aviasiya təhlükəsizliyi, uçuşların təhlükəsizliyi, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair dövlət proqramlarını qəbul etmək, hava hərəkətinə xidmət göstərilməsini, aviasiyada telekommunikasiya və informasiya xidmətini təmin etmək, hava limanlarının, aerodromların, aviasiya təşkilatlarının fəaliyyətini, hava hərəkətinə xidmət sistemini tənzimləmək və bu fəaliyyətə nəzarəti həyata keçirmək, mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxsləri, aviasiya avadanlıqlarını və vasitələrini sertifikatlaşdırmaq, aviasiya hadisələrini və insidentlərini araşdırmaq, onların qarşısını almaq, habelə uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün maarifləndirmə və məlumatlandırma işlərini görmək, aviasiya hadisələri və insidentlərinin məlumat bazasını formalaşdırmaq və digər məsələlərin həlli aviasiya sahəsində dövlətin vəzifələri kimi təsbit olunur.

Sənəddə aviasiya sahəsində fəaliyyətə dair ümumi və xüsusi tələblər, mülki aviasiya sahəsində xidmətlərə və ya hüquqi hərəkətlərə görə yığımlar və dövlət rüsumu, aerodromyanı ərazi və onun istifadəsinə dair məhdudiyyətlər, hava limanlarının, aerodromların və helikopter meydançalarının inşası və yenidən qurulması ilə bağlı müddəalar öz əksini tapıb.

Komitə sədrləri Siyavuş Novruzov, Tahir Rzayev, deputatlardan Tahir Kərimli, Məlahət İbrahimqızı sənəd barədə fikirlərini və bəzi qeydlərini səsləndiriblər. Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## "Ağıllı kənd" konsepsiyası Zəngilanda reallaşıb

Bu günlərdə xalqımız tarixi hadisələrə şahidlik etməyə davam edir. Oktyabrın 15-də Prezident İlham Əliyev tərəfindən Xankəndi şəhərində Azərbaycan bayrağının ucaldılması suverenliyimizin tam bərpa edilməsinin mühüm rəmzidir.

Uzun illər düşmən işğalında qalmış tarixi torpaqlarımız Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Ərazi bütövlüyümüz bərpa olunub, suverenliyimiz təmin edilib.

20 oktyabrı bizim üçün əlamətdar edən tarixi hadisə, Zəngilan şəhərinin düşmən işğalından azadlığı günü olmasıdır. Hamımız yaxşı bilirik ki, ermənilər işğal altında saxladıqları ərazilərimizi viran qoymuş, bütün bina və tikililəri məhv etmişlər. Təəssüf ki, belə vandallıq aktlarından ən çox ziyan çəkmiş rayonlarımızdan biri də Zəngilan olmuşdur.

Ermənistan bu 30 il ərzində yalnız evləri dağıtmaqla, infrastrukturu sıradan çıxarmaqla kifayətlənməmiş, dini və tarixi abidələrimizi də məhv etmişdir. Üçtərəfli Bəyanat imzalandıqdan dərhal sonra dövlətimizin başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işlərinə başlanılmışdır. 3 ildən də qısa müddətdə, işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Zəngilana da həyat qayıdıb.

Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi "Ağıllı kənd" konsepsiyasının reallaşmasının bariz təzahürüdür. 30 il doğma yurd həsrəti çəkmiş zəngilanlılar artıq evlərinə qayıdırlar, Böyük qayıdış proqramı uğurla icra edilir. Sevindirici haldır ki, işğaldan azad edilmiş ərazilərdə tikilən 3 beynəlxalq hava limanından biri məhz Zəngilanda yerləşir. Vaxtilə viran edilmiş Zəngilan planlı surətdə yenidən qurulmaqdadır. Artıq bu rayon Beynəlxalq Şəhərsalma Forumuna evsahibliyi də edib. İşğaldan azad edilmiş digər ərazilərimizlə birlikdə Zəngilanda da müasir infrastruktur qurulur, insanların rahat yaşaması üçün hər cür şərait yaradılır, məktəb, bağça, xəstəxanalar tikilir.

Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtdıqdan sonra məşğulluq məsələlərinin həlli də dövlətimizin diqqət mərkəzindədir. Bu ərazilərdə sahibkarlığa verilən dəstəkdə əsas məqsəd dayanıqlı inkişafa nail olmaqdır. Artıq ölkəmizdə yeni inkişaf dövrü başlayıb, Qarabağa və Şərqi Zəngəzura uzun illərdən sonra həyat qayıdıb.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***

## İtaliya Deputatlar Palatasında Azərbaycan həqiqətləri təbliğ edilib

Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və komitənin üzvü, həmçinin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Azər Kərimli Romada İtaliya parlamentinin aşağı palatası olan Deputatlar Palatasının Xarici əlaqələr və icma komissiyasının sədri Culio Tremonti və komissiyanın üzvü Cianciakomo Kalovini ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, S.Seyidov səfər çərçivəsində İtaliya Senatının Avropa İttifaqı siyasəti komissiyasında səmərəli görüş keçirdiyini qeyd edib. Komitə sədri 30 il əvvəl Azərbaycanın ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyon azərbaycanlının ermənilər tərəfindən etnik təmizləməyə məruz qaldığını deyib. Bildirilib ki, buna baxmayaraq, ölkəmiz məsələni hər zaman sülh yolu ilə həll etməyə çalışıb, lakin Ermənistan torpaqlarımızı qaytarmaq istəməyib. Buna görə də Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi və son antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz bərpa olunub.

"Biz sülh barədə düşünürük, regionda sülhün bərqərar olacağına, bölgənin sülh şəraitində daha da inkişaf edəcəyinə inanırıq. Ermənilərin Qarabağı tərk etmələrinə təəssüflənirik. Əfsuslar olsun ki, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünlərə görə erməni tərəfi heç vaxt təəssüf hissi keçirməyib. Ermənilərin beynini 30 il müddətində azərbaycanlılarla "birgə yaşaya bilmərik" təbliğatı ilə zəhərləyiblər", - deyə S.Seyidov qeyd edib. O, Azərbaycana qarşı "etnik təmizləmə" iddiasının əsassız olduğunu, əslində, işğal dövründə azərbaycanlıların ermənilər tərəfindən etnik təmizləməyə məruz qaldıqlarını söyləyib.

# Bakıda "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda konfrans keçirilib







*Əvvəli 1-ci səh.*

Qeyd etmək lazımdır ki, BMT Baş Assambleyası tərəfindən 1948-ci il dekabrın 10-da qəbul edilmiş və mütərəqqi müddəalarının əhəmiyyətinə görə hələ də təməl sənədi hesab olunan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi irqindən, cinsindən, dilindən, dinindən, mənşəyindən və siyasi əqidəsindən asılı olmayaraq, bütün insanların bərabərliyinin təminini özündə ehtiva edir.

Ümumbəşəri xarakterə malik olan həmin sənədin 4-cü maddəsinə əsasən, heç kəs kölə və ya asılı vəziyyətdə saxlanıla bilməz, quldarlıq və qul ticarəti bütün formalarda qadağan edilir. Bu il bu sənədin qəbul olunmasının 75 illiyinin qeyd edildiyi müasir dövrdə hələ də dünyada müstəmləkə siyasəti ilə məşğul olan ölkələrin mövcud olması təəssüf doğurur.

Göründüyü kimi, tarix boyunca bu mənfur siyasətdən əl çəkməyən dövlətlər, nəinki müstəmləkəsi altında saxladığı ölkələrin xalqlarının, hətta öz vətəndaşlarının da fundamental hüquq və azadlıqlarını pozanlar bu gün özünü dünyaya insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi təqdim edirlər" , - deyə S.Əliyeva bildirib.

Ombudsman qeyd edib ki, Afrikada, Yaxın və Uzaq Şərqdə həyata keçirilən neokolonializm siyasəti milyonlarla günahsız insanın yaşamaq, azadlıq və sərbəst hərəkət etmək, mülkiyyət, təhlükəsiz yaşamaq, sağlam ətraf mühitdə yaşamaq, sağlamlığın qorunması kimi əsas insan hüquqlarının kobud şəkildə pozulmasına səbəb olub. Təcavüzkar dövlətlər müstəmləkə əsarətində saxladıqları ölkələrdə daxili qarşıdurmaların, soyqırımlarının baş verməsində bilavasitə məsuliyyət daşıyırlar. Bu çirkin əməllərindən əsas ziyan çəkənlər isə hər zaman olduğu kimi, günahsız insanlar - mülki əhalidir.

Müvəkkilin sözlərinə görə, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq, terror və etnik zəmində nifrət siyasətini açıq şəkildə dəstəkləməklə beynəlxalq hüququn norma və prinsiplərinə qarşı çıxan Fransa son zamanlar ölkəmizin əleyhinə qərəzli və qəbuledilməz siyasətini daha da gücləndirib. Bölgədə nüfuz sahibinə çevrilmək üçün həyata keçirilən bu siyasət ədalətli sülhün və sabitliyin bərqərar olmasına deyil, əksinə, iki qonşu xalq arasında düşmənçilik hisslərinin alovlanmasına, yeni süni münaqişə ocaqlarının yaradılmasına və beləliklə Cənubi Qafqaz regionunda dayanıqlı sülh quruculuğu prosesinə təhdid törətməyə xidmət edir.

Qvadelupanın Azadlıq Uğrunda Xalq Birliyinin üzvü **Jan-Jakob Bisep** bildirib ki, ölkəsində müstəqillik tərəfdaşı olan qruplar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır. Qvadelupa əhalisinin dörd əsrdir Fransanın əsarəti altında yaşadığını vurğulayan Jan-Jakob Bisep deyib: "Biz artıq tam suveren ölkə olmaq istəyirik. Qvadelupa əhalisi Fransaya qarşı illərlə mübarizə aparan qəhrəman millətdir. Biz torpaqlarımız üçün mübarizə aparırıq. Qvadelupa gəncləri Fransanın göndərdiyi müəllimlərdən dərs alırlar. Onlar öz kitablarında bizim dilimizi, tariximizi, mədəniyyətimizi təhrif edir, gənclərimizə Fransa tarixini və dilini öyrədirlər. Həmin gənclər daha sonra işləmək üçün Fransanın müəyyən etdiyi yerlərə gedirlər. Xalqımız bu haqsızlıqlarla daim mübarizə aparıb. Ölkəmdə yüzlərlə insan fransız polisləri tərəfindən həbs edilir, bir çoxu amansızlıqla qətlə yetirilir. Qvadelupanın təbii sərvətləri illərdir Fransa tərəfindən mənimsənilir. Ölkəmdə yaşayan vətəndaşların sosial vəziyyəti heç də yaxşı deyil. Biz hakimiyyətdə olan insanlardan lazımi tədbirləri görmələrini tələb edirik. Böyük dövlətlər Karib hövzəsində insan hüquqlarını əzərək öz güclərini nümayiş etdirirlər. Karibdə sülh yenidən bərqərar olmalıdır".

Martinikanın Azadlıq Partiyasının nümayəndəsi **Lyuk Frensis Kerol** ölkəsinin təbii sərvətlərinin talan olunduğunu və 90 faizinin Fransaya və digər ölkələrə aparıldığını vurğulayıb. "Kənd təsərrüfatı siyasəti elə qurulub ki, biz sərbəst hərəkət edə bilməyək. Müstəmləkəçilik mədəniyyət sahəsinə də təsir edir. Biz istəyirik ki, dilimiz fransız dili ilə eyni səviyyədə rəsmi dil olsun. Onlar bundan imtina edirlər. Biz, eyni zamanda istəyirik ki, Fransa ədalət qarşısında cavab versin. Biz müstəqillik əldə etmək istəyirik. Afrikanın azad olunması bütün dünyanın diqqətində olmalıdır. Afrika diasporu fəal işləməlidir", - deyə Lyuk Frensis Kerol əlavə edib.

Müstəqilliyin əldə edilməsinin vacibliyini vurğulayan qonaq bildirib: "Yalnız bundan sonra müstəmləkəçiliyə son qoyulduğunu deyə bilərik".

Fransız Qvianasının Sosial Azadlığı və Dekolonizasiya Naminə Hərəkatın siyasi bürosunun üzvü **Moris Pindard** ölkəsinin Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salındığını söyləyib. Ölkədə qızıl mədənlərinin talan edildiyini, qızılın çıxarılaraq Fransaya daşındığını deyən M.Pindard bildirib: "Qızılın hasilatı prosesində çaylarımız çirklənir, təbiətimiz zərər görür. Fransa şirkətləri meşələrimizdən, təbii resurslarımızdan istifadə edir. Bizim üçün öz ölkəmizdə heç bir gəlir yoxdur. Həmçinin təhsil və mədəniyyət sahələrində də dominantlıq var. Dərslər Fransa dərslikləri vasitəsilə keçilir. Onlar bizi xalq kimi qəbul etmir, hüquqlarımız tapdalanır. Biz buna qəti şəkildə etiraz edirik".

Konfransda çıxış edən Fransız Polineziyası Assambleyasının üzvü **Heinui Robert le Caill** uzun illərdir Fransanın müstəmləkəsi altında olan ölkəsindəki vəziyyətdən bəhs edib. Diqqətə çatdırıb ki, Polineziya və Azərbaycan xalqlarının taleyi bir-birinə bənzəyir. Hər iki xalq uzun illər ədalətsizliyə qarşı mübarizə aparıb. Lakin bizim əsas fərqimiz Polineziya xalqının hələ də bu problemdən əziyyət çəkməsidir.

"Fransa ölkəmizin adını dəyişərək, Fransız Polineziyası adlandırır. O, hər kəsin maraq dairəsində olan Sakit Okean hövzəsindən uzaqlaşmaq istəmir. Məhz bu səbəbdən həmin bölgədə yaşayan xalqlara münasibətdə müstəmləkəçilik siyasəti həyata keçirir. Fransa təbii resurslarımızı istismar edir. Yerli əhalini kömür və qazın çıxarılması kimi ağır işlərdə çox az məvacib müqabilində işlədir. Fransa Polineziyanın kömür və qazından hər il 25 milyard dollar qazanır. Öz qazının 70 faizini müstəmləkə altında saxladığı ölkələrdən əldə edir. Müstəqillik tərəfdarı olan qrupların üzvləri Fransa tərəfindən həbs edilir. Hər ay minlərlə polineziyalı gənc Fransa ordusuna çağırılır və onlar Fransanın müstəmləkəçilik siyasətinin həyata keçirilməsi yolunda həlak olurlar. Biz haqqımız olan suverenliyi tələb edirik", - deyə Heinui Robert le Caill vurğulayıb.

Kanak Birliyinin təmsilçisi **Davi Nikolas Bolo** çıxışında Kaledoniyanın hələ də Fransanın müstəmləkəsi olduğunu xatırladıb. Xalqının çox böyük ədalətsizliklərlə üzləşdiyini qeyd edən qonaq bildirib: "Bizim azadlıqla bağlı aktual problemlərimiz təəssüf ki, hələ də davam edir. Fransa yerli xalqların torpaqlarını əllərindən alır, əhalini isə sürgün edir. Müstəmləkələrdə fəal ictimai şəxslər öldürülür. Xalqımıza qarşı qeyri-qanuni siyasət aparılır. Kaledoniyada ciddi korrupsiya faktları var. Seçkilərdə bunu açıq şəkildə görmək olur. Resurslarımız Fransa tərəfindən istismar edilir. Təbii sərvətlərlə zəngin ölkə olsaq da, əhalinin yoxsulluq səviyyəsi xeyli yuxarıdır. Fransa Kaledoniyanı maliyyə asılılığı olan bölgəyə çevirib. Beynəlxalq platformalar 200 ilə yaxın müddətdə Fransanın davam etdirdiyi absurd müstəmləkə siyasətinə hələ də susurlar. Fransa öz öhdəliklərini yerinə yetirmir və bölgədə hər zaman işsizlik, aclıq, irqçilik hökm sürür. Diplomatiya sahəsində ciddi boşluqlar var. Eyni zamanda biz iqlim dəyişikliyi ilə bağlı çətinliklər yaşayırıq. Orada insanlar öz mədəni mənsubiyyətini itirir. Gənclər xarici ölkələrə getməyə məcbur olurlar".

Korsika adasının Poggio-di-Venaco şəhərinin meri **Jan-Mark Rodriguez** müqavimətin Korsika xalqını təsvir edən ən açıq ifadə olduğunu söyləyib. Fransanın illər boyu Korsikanı müstəmləkə altında saxlayaraq burada cinayətlər törətdiyini, müstəqillik istəyənlərin həbs edildiyini, ya da öldürüldüyünü söyləyən Jan-Mark Rodriguez deyib: "Mənim Vətənimdə azadlıq üçün cəsarətlə mübarizə aparan qəhrəmanlar var. Ancaq həmin şəxslərin adları bizim tarix kitablarımıza əlavə olunmayıb. Fransa öz koloniyalarında xalqların dilini, mədəniyyətini unutdurmaq, millətçilik hisslərimizi məhv etmək istəyir. Repressiyalar Korsika xalqı üçün adi hala çevrilib. Fransa illər boyu bizə yalan vədlər versə də, Korsikada hakimiyyətə sadəcə, Fransanın müəyyən etdiyi adamlar gəlir. Səsvermə və demokratiya Fransanın uzaq olduğu anlayışlardır. Bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirik".

Müstəqil Martinika Naminə Ekoloqlar və Demokratlar Hərəkatının sədr müavini **Klaudette Duhamel** deyib ki, Fransanın müstəmləkəçilik siyasəti ən ağır, qaniçən siyasətdir: "Onlar bizim ruhumuzu, adət-ənənələrimizi əlimizdən alıblar. Bizi boş qutu kimi öz maraqlarına uyğun istifadə edirlər. Əcdadlarımızın yaratdığı mədəni irsimizi əlimizdən aldılar. Sadəcə, mədəniyyətimizi deyil, insani keyfiyyətlərimizə də zərər yetirdilər. Hətta kənd təsərrüfatımızı belə məhv etdilər, ekosistemimizə zərbə vurdular. Bir sözlə, bizim həyatımıza, yaşayışımıza zərər yetirirlər. Bu, dəhşətdir. Əhalinin 90 faizini zəhərlədilər, xərçəng xəstəliyinin geniş yayılmasına səbəb oldular. Həkimlər belə bu barədə danışa bilmirdilər, Fransa imkan vermirdi. Bu vəziyyət Fransanı qətiyyən maraqlandırmır. Onları maraqlandıran yeganə məsələ çoxlu gəlir əldə etməkdir. Onlara görə, qaradərililərin əşyadan fərqi yoxdur, söz haqqımız yoxdur".

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** konfransda çıxış edərək bildirib ki, Avropanın bəzi ölkələri kolonializm siyasətini bu gün də davam etdirir. Onlar, eyni zamanda hərbi gücdən istifadə edirlər. "Biz bu gün kolonializmlə bağlı mübarizədə çoxlu fikirlər eşitdik. Azərbaycan olaraq, öz səylərimizi, mübarizəmizi və siyasi azadlıq ambisiyalarımızı davam etdirəcəyik. Burada səsləndirilən fikirləri BMT və digər beynəlxalq təşkilatlar səviyyəsində qaldıracağıq. Bizim ölkəmiz uzun illər müstəqillikdən məhrum olmuşdu. Biz dövlət olaraq işğalın nə olduğunu bilirik", - deyə Hikmət Hacıyev vurğulayıb.

Fransız Qvianasının Sosial Azadlığı və Dekolonizasiya Naminə Hərəkatın siyasi bürosunun digər üzvləri **Hektor Pindard** və **Sindi Polluks** ölkələrində gənclərin müstəmləkəçiliyin təsiri altında olduğunu söyləyiblər. Bildirilib ki, bu ilk növbədə, onların təhsilinə təsir edir. Məktəblərdə Avropa və fransız təhsili tədris olunur, onların mədəniyyəti öyrədilir. Ana dilini öyrənmək üçün ciddi çətinliklər var. Gəncləri milli mənsubiyyətlərindən uzaqlaşdırmağa çalışırlar. Onların təhsil səviyyəsi özünüdərk üçün kifayət deyil.

Fransanın Əlcəzairdə törətdiyi soyqırımından danışan Əlcəzairin Ali təhsil və elmi tədqiqatlar nazirinin müşaviri **Yousef Houri** bildirib ki, fransızlar 1945-ci ilin martında 45 min əlcəzairlini, 1952-ci ildə Konstantin şəhərində 230 nəfəri qətlə yetiriblər. 1961-ci ildə Parisdə 300 əlcəzairli qətlə yetirilib. Soyqırımı uşaqlara, qadınlara, qocalara, bütünlükdə hər kəsə qarşı həyata keçirilirdi. Fransa bütün qadağan olunmuş silahlardan istifadə edərək Əlcəzair xalqına qarşı soyqırımı həyata keçirib".

"Fransa hər kəsə insan hüquqları, beynəlxalq hüquqla bağlı dərs verməyə çalışır. Lakin Fransa bizim planetimizdə dərs verə biləcək ən son ölkədir. Onun insan hüquqları ilə bağlı kiməsə dərs verməyə haqqı yoxdur", - deyə Yousef Houri bildirib.

Tədbirdə Kaledoniya Birliyi Partiyasının baş katibinin müavini **David Vanabo,** Yeni Kaledoniya parlamentinin üzvü **İzabelle Serai Kalori ep Bearuni,** Yeni Kaledoniyanın Lifu icma bələdiyyəsinin müşaviri **Kayzi Pyer** çıxışlarında Fransanın 170 ildir davam etdirdiyi işğala son qoyulmasının vaxtı çatdığını deyiblər. Onlar kaledoniyalıların öz haqlarını dünya ictimaiyyətinə yetirmək üçün beynəlxalq arenada fəal şəkildə görünməyə çalışdıqlarını bildiriblər.

Azərbaycanlı tədqiqatçı **Kəmalə Muradova,** Efiopiyada fəaliyyət göstərən qeyri-hökumət təşkilatının (QHT) rəhbəri **Hebron Fekadu Gebre,** Mərakeşdən olan elmi tədqiqatçı **Hadica Butkili,** Keniyadan QHT rəhbəri **Kristiene Yakhama** və digərləri çıxışlarında Fransanın müstəmləkəsi altında olan ölkələrdə həyata keçirdiyi etnik təmizləmə, insan haqlarının ciddi şəkildə pozulması faktlarından danışıb, rəsmi Parisin bu cinayətlərə və zülmlərə görə cavab verməli olduğunu qeyd ediblər.

Sonda "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb.

Müraciətdə Qoşulmama Hərəkatının sədri statusunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan xalqına səmimi və mehriban qonaqpərvərliyə görə konfransın iştirakçılarının dərin minnətdarlığı ifadə olunub.

Konfrans iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevin müraciətini yüksək qiymətləndirərək, ədalət və azadlıq uğrunda apardıqları haqlı mübarizədə göstərdiyi ardıcıl dəstəyə görə dövlətimizin başçısına təşəkkür ediblər.

Həmçinin Azərbaycanın Qoşulmama Hərəkatının təməl prinsiplərinə, habelə beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Nizamnaməsində təsbit olunan məqsəd və prinsiplərə sadiqliyi yüksək səviyyədə təqdir olunub.

Konfrans iştirakçıları Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə gördüyü işləri, irəli sürdüyü təşəbbüsləri və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımları, xüsusilə kolonializmə qarşı mübarizədə qətiyyətli mövqeyini alqışlayıblar.

Eləcə də Azərbaycanın ədalətli beynəlxalq nizama əsaslanan dünya düzəninin bərqərar olması istiqamətindəki səyləri təqdir olunub. Bu baxımdan 2023-cü ilin iyulunda dekolonizasiya üzrə "Bakı Prosesi"nin təməlinin qoyulması, bu proses çərçivəsində qısa müddətdə mötəbər tədbirlərin keçirilməsinin dekolonizasiya üzrə səmərəli işin aparılmasına, ədalət səsimizin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasına verdiyi töhfə yüksək qiymətləndirilib.

"Biz əminik ki, birgə apardığımız haqlı mübarizə və bu xüsusda dünya ictimaiyyətinin artan tələbləri dekolonializmlə bağlı zəruri addımların atılmasına və təbii haqqımız olan hüquq və azadlıqlarımızın təmin edilməsinə kömək edəcək.

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə bu ilin iyulunda Bakıda və sentyabrında Nyu Yorkda keçirilmiş tədbirlərin yekun sənədlərində əksini tapmış prinsipial mövqelərimizin doğruluğunu və aktuallığını təsdiqləyirik", - deyə müraciətdə bildirilib.

## Yeni Kaledoniya deputatı: "Beynəlxalq ictimaiyyət Fransanın resurslarımızı mənimsəməsinə göz yumub"



"1980-ci illərdə ölkəmizin iqtisadi vəziyyəti çox ağır idi. O vaxt ölkəmizdə Fransaya qarşı hərəkat yaranmışdı. Bizim hərəkatın lideri elə o dövrdə öldürülüb. Halbuki, onun ölümü ictimaiyyətə təyyarə qəzası kimi təqdim olunub. Ölkəmiz Fransanın əlində olduğu üçün iqtisadiyyatımız iflic vəziyyətdə idi".

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Yeni Kaledoniya Parlamentinin üzvü İzabel Serai Kaloi Bearuni söyləyib. "Fransa bizim resurslarımızı mənimsəyirdi. Bu isə təbii fəlakətlərə, həmçinin torpaq sürüşmələrinə gətirib çıxarırdı. Beynəlxalq ictimaiyyət buna göz yumurdu", - deyə o bildirib.

Parlament üzvü yerli əhalinin həyatını yaxşılaşdırmaq istiqamətində heç bir addım atılmadığını diqqətə çatdırıb: "Nəhayət ki, 150 ildən sonra, biz Fransadan öz resurslarımızdan istifadə etmək haqqını qazanmışıq".

## Efiopiyalı QHT rəhbəri: "Fransa bir çox xalqın tarixində mürəkkəb vəziyyətlər yaradıb"



"Avropa müstəmləkə siyasətinin səhiyyəyə və bu sahədə çalışan işçilərə vurduğu ziyanı qəbul etməlidir. Bu gün səhiyyə sisteminə yerli mütəxəssislər cəlb edilməlidir. Fransa bir çox xalqın tarixində mürəkkəb vəziyyətlər yaradıb".

AZƏRTAC xəbər verir ki, bunu "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda keçirilən konfransda Efiopiyada qeyri-hökumət təşkilatı (QHT) rəhbəri olan Hebron Fekadu Gebre deyib.

Onun sözlərinə görə, dekolonizasiya Qərb kolonizasiyasının sonunu labüd edir və həmçinin ədalətsizliyə qarşı mübarizəni tərənnüm edir: "Efiopiya Fransanın müstəmləkəsi olmayıb, amma bu ölkə üçün də müəyyən problemlər yaradıldığını qeyd edə bilərik. Fransa digər müstəmləkəçi ölkələr kimi, regionda həmişə maraqlı olub. Efiopiya isə həmişə suverenliyin bərpası üçün çalışıb".

## Hektor PİNDARD: "Qvineyada gənclər müstəmləkəçiliyin təsiri altındadırlar"



"Qvineyada gənclər müstəmləkəçiliyin təsiri altındadırlar. İlk növbədə, bu, onların təhsilinə təsir edir. Bizdə Avropa və fransız təhsili tədris olunur, onların mədəniyyəti öyrədilir. Ana dilini öyrənmək baxımından da çətinliklər vardır".

AZƏRTAC xəbər verir ki, bunu "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda keçirilən konfransda Fransız Qvineyasının Sosial Azadlığı və Dekolonizasiyası Naminə Hərəkatın siyasi bürosunun üzvü Hektor Pindard deyib.

Gəncləri milli mənsubiyyətlərindən uzaqlaşdırmağa çalışırlar. Onların təhsil səviyyəsi özünüdərk üçün kifayət qədər deyil. Uşaqlar məktəblərdə sona qədər oxumurlar, buna görə də iş tapa bilmirlər. İl ərzində 10 min gənc məktəbdən uzaqlaşır. Məzun olan şəxslər isə layiqli iş tapmaqda çətinlik çəkirlər. İşsiz gənclərin sayı artmaqda davam edir. İş yerlərinə və məktəblərə daha çox diqqət ayırmaq lazımdır", - deyə Hektor Pindard vurğulayıb.

## Əlcəzair təmsilçisi: "Fransa planetimizdə dərs verə biləcək ən son ölkədir"



"Fransa hər kəsə insan hüquqları, beynəlxalq hüquq sahəsində dərs vermək istəyir. Lakin Fransa bizim planetimizdə dərs verə biləcək ən son ölkədir. İnsan haqları sahəsində onun dərs verməyə haqqı yoxdur".

AZƏRTAC xəbər verir ki, bunu "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda keçirilən konfransda Əlcəzairin Ali təhsil və elmi tədqiqatlar nazirinin müşaviri Youcef Houri deyib.

Fransanın Əlcəzairə qarşı törətdiyi soyqırımı siyasətindən bəhs edən Youcef Houri bildirib: "Fransızlar 1945-ci ilin martında 45 min əlcəzairlini, 1952-ci ildə Konstantin şəhərində 230 nəfəri öldürüblər. 1961-cı ildə Parisdə 300 nəfər əlcəzairli qətlə yetirilib. Soyqırımı uşaqlara, qadınlara, qocalara, bütünlükdə hər kəsə qarşı həyata keçirilirdi. Fransa bütün qadağan olunmuş silahlardan istifadə edərək Əlcəzair xalqını qətlə yetirirdi".

FELYETON

# Bakıda "çay qonaqlığı"

## Nəhayət ki, "qədim erməni xəstəlikləri"nin müalicəsi tapıldı

Məşhur qəzəlin maraqlı bir misrası var:

Xəstə çox şey dilər, amma ona qismət olmaz...

*Ermənilər xəstə millətdirlər!*

*Bu, ruhi xəstəlikdir!*

Amma nə özlərinin, nə də ikili standartlar dünyasının bu xəstəlikdən xəbəri var!

Belə xəstəliyin simptomlarına ayrı-ayrı insanlarda, xüsusən uşaqlarda daha çox rast gəlmək mümkündür.

**Başlıca əlaməti isə öz uydurmalarına, söylədikləri yalanlara özlərinin də inanması, həqiqətdən uzaq fakt və hadisələri gerçəklik, reallıq kimi qəbul etmələridir.**

*Məsələn, ermənilər uzun illərdir "böyük Ermənistan" xülyasına qapılıblar.*

*Guya haçansa "dənizdən-dənizədək uzanan böyük Ermənistan" adlı bir dövlət olub.*

Hətta onun "xəritə"sini də çəkib yayıblar.

**Həqiqətdə isə nə tarixdə belə dövlət olub, nə də keçmişdən qalma belə bir xəritə var.**

Necə deyərlər, bu fikirlə, bu inamla özlərini salıblar zibilə!

*Bütün qonşularına qarşı ərazi iddiaları ("böyük Ermənistan"ı təzədən bərpa etməkdən ötrü) irəli sürərək hamısı ilə düşmənçilik edirlər.*

*Bütün qonşularından da zəif və gücsüzdürlər!*

Hər qonşusu isə başına bir qapaz vuraraq küncə sıxıb!

İndi çevrilib olublar "dalan dövlət"!

**"Forpost", "satellit" olduqları azmış kimi, indi də dalanda, qapı dalında qalıblar.**

Nə dillərinə yiyəlik edirlər, nə də xəstə beyinlərindəki fikirlərindən dönürlər.

"Böyük Ermənistan" qurmaq istəyən millət Azərbaycan ərazilərini 27 il işğalda saxladı.

Di gəl ki, orada yaşamağa adamı olmadı, şəhər və kəndlər qaldı bomboş.

Livandan, başqa xarici ölkələrdən gətirib məskunlaşdırdıqları isə az sonra qaçıb getdilər.

*Hələ Qarabağ bir yana, İrəvandakı nisbətən "ağıllı ermənilər" də fürsət düşən kimi köçüb Rusiyaya gedirlər.*

Bir az diribaşları isə böyük "bacı"ları Fransanın yanına, ABŞ-dəki Nensi "nənə"lərinin vətəninə köçürlər.

Qarabağı "qədim vətən"ləri adlandırsalar da, əllərində olduğu müddətdə həmin ərazidə daş üstdə daş qoymadılar.

Hər iki mənada.

Nə iki daşı bir-birinin üstünə qoyaraq yeni ev tikdilər, nə də tikili evi salamat saxladılar.

Hər şeyi söküb, dağıdıb satdılar.

Sonra xaraba bayquşları tək viranəlikdə yaşadılar.

❖ ❖ ❖

**İkinci sağalmaz xəstəlikləri isə oğurluqdur.**

**Bu millət təkcə indi gözünə görünənləri deyil, keçmişdən qalanları da oğurlayır, mənimsəyir.**

*Ağına-bozuna baxmadan, maddi, mənəvi, mədəni nə varsa hamısını çırpışdırır, sonra at kimi adamın üzünə duraraq deyir ki, bunların hamısı qədimdən bizə məxsusdur.*

**Məsələn, yüz il bundan qabaq Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasını bir erməni öz adına çıxmışdı.**





Əgər o zaman Stalin bunun qarşısını almaqdan ötrü həmin əsər əsasında film çəkdirməsəydi, indiyədək iddialarından - oğurluqlarından əl götürməyəcəkdilər.

* Üzümüzə dirənirlər ki, "Sarı gəlin" mahnısı bizimdir!

* Yastı balabana "duduk" deyib öz adlarına çıxırlar.

* Dolmanı özününküləşdirmək üçün kitablar yazırlar.

Gizlincə torpağın altına bir erməni xaçı basdırır, neçə illər sonra həmin yerdə "arxeoloji qazıntılar aparıb tapıntılarını üzə çıxararaq bura qədim erməni yaşayış məskənidir" - deyə dünyaya car çəkirlər.

**Nəhayət ki, "qədim erməni xəstəlikləri"nin müalicəsi tapıldı!**

**Özü də bunu Azərbaycan xalqı tapıb.**

Xəstəliyin müalicəsi iki mərhələdə aparılır:

*Əvvəlcə "dəmir yumruq" işə salınır, sonra isə yumruğun dadını görənlərə "çay qonaqlığı" verilir!*

❖ ❖ ❖

**Ruben Vardanyan Rusiyada oğurluq pullarla varlanmışdı.**

**Əli ABŞ-dən, Fransadan, Brüsseldən tutmuş hər yerə çatırdı.**

*Amma milyarder olsa da, əsl çay - "Azərçay" tapıb içə bilmirdi.*

Arzusuna çatmaq üçün bütün obyektlərini qoyub gizlincə Xankəndiyə gəldi.

Burada da yaxşı çay tapa bilmədi.

Xərc çəkib özünü qondarma qurumun "dövlət naziri" qoydurdu ki, bəlkə yerli ermənilərdən kimsə ona rüşvət qismində "Azərçay" verə...

Gözləri yolda qaldı...

Azərbaycan DTX-sinin əməkdaşları Vardanyanın bu arzusundan xəbər tutan kimi onu rahatca maşına qoyub Bakıya gətirdilər.





Münasib şəraiti olan bir etibarlı yerdə yerləşdirdilər.

**Deyilənə görə, Vardanyan dayanmadan, gecə-gündüz durmadan çay içir.**

**Nədənsə doymaq bilmir.**

❖ ❖ ❖

*Arkadi Qukasyanla Bako Sahakyan da "Azərçay" - əsl çay tamarzısı imişlər.*

*Neçə dəfə paytaxtdakılara eşitdiriblər ki, Bakıda, dəniz qırağında çay içmək istəyirlər.*

Heç kim onları adam yerinə qoyub bir stəkan çay verməyib.

Onlar da acığa düşərək qondarma qurumlarındakı "prezidentlik"lərindən imtina ediblər.

*Separatçı qurum oktyabrın 9-da özünü buraxanda Arkadi ilə Bakonun da bəxti açıldı.*

*Yenə də sağ olsun bizim DTX-dəki igidlərimiz.*

*Gedib onları səssizcə maşına qoyaraq Bakıya gətirdilər!*

**İndi sabiq "prezidentlər" dəniz qırağında olmasa da, dəniz havasında doyunca "Azərçay" - əsl çay içirlər.**

**Onların da yerləri rahatdır.**

❖ ❖ ❖

**Arayik Harutyunyan isə çayxorluğunun yox, dilinin bəlasına düşdü.**

Separatçı quruma "prezidentlik" etdiyi müddətdə oğurladığı pullardan özünə Ermənistanda, Rusiyada xeyli obyekt tikdirmişdi.

Laçın yolu nəzarətə götürüləndən sonra gördü ki, nə Ermənistandan, nə başqa yerdən əvvəlki tək nə dram gətirən var, nə də onu oğurlamaq imkanı.

Odur ki, vəzifəsindən küsdü, "prezident"liyindən istefa verdi.

*Amma "istefa"sına qədər böyük bir qələt yemişdi:*

*Gəncəni ballistik raketlə onun əmri ilə vurulduğunu etiraf etmişdi!*

*O biri şəhərlərimizi də raketlə vuracağı ilə bizi hədələmişdi.*

**Başından böyük yediyi bu qələt onun da Bakıya "çay qonaqlığı"na gətirilməsinə səbəb oldu!**

*Düzdü, Xankəndidə yekə-yekə, lovğalana-lovğalana gəzirdi.*

*Bakıya gətiriləndə isə qəddi bükülmüşdü.*

*Əgər igidlərimiz qoluna girməsəydilər, bəlkə də yerə yıxılardı.*

❖ ❖ ❖

**Bir erməni rejissor da vardı, Arşak Zakaryan adında.**

**O da başından yekə danışanlardan idi.**

Bir dəfə yol istiqamət göstəricisinə işarə edərək erməni tankları ilə Bakıya gəlmək arzusunda olduğunu söyləmişdi.

Sonra da rejissorluğunu buraxıb Kəlbəcərdə restoran tikərək alver edirdi.

44 günlük Zəfər müharibəsi başlayanda bu "igid"in də arzusu yerinə yetirildi.

*Bakının mərkəzində gözəl bir Hərbi Qənimətlər Parkı yaradaraq Ermənistanın xəşilə döndərilmiş tanklarını, toplarını, digər zirehli texnikalarını götürüb gəldilər.*

Fərq bircə onda oldu ki, tanklar, necə deyərlər, "öz xoduna" gəlmədi.

Sürüyüb gətirdilər.

**Bu erməni rejissor bizdən nə təhər incidisə, başladı zır-zır ağlamağa: "Gərək məni tankın üstündən düşürməyəydiniz. Mən də dəniz qırağında gəzmək istəyirdim".**

Day haray hara çatacaqdı?!

Həm də xüsusi təyinatlılarımıza artıq zəhmət vermək istəmədik.

*Peşəsinə xəyanət eləmiş bu uğursuz rejissor ağlamaq səhnəsini o qədər məharətlə oynamışdı ki, feysbukda əməlli-başlı "baxış" yığmışdı.*

❖ ❖ ❖

**Qondarma qurumun "parlament sədri" David İşxanyanın xəstəliyi isə bambaşqa olub.**

**Dərin stres keçirib.**

Tərs kimi Xankəndidə də ruhi xəstələr üçün xəstəxana yoxdur.

Xəstəliyinin qəribə tarixçəsi var.

*Bu "spiker" Şuşada iclas keçirmək istəyirdi.*

*Dünya erməniləri yığışıb qısa vaxtda ona yarlı-yaraşıqlı bir "parlament" binası da tikdilər.*

Tamamlama işlərinin başa çatmasına az qalmışdı.

Azərbaycan Ordusunun xüsusi təyinatlıları qəfildən işə qarışdılar.

**Yarımçıq işləri elə "tamamladılar" ki, bir də Xankəndidəkilər baxıb gördülər Şuşadakı "parlament" binası yoxa çıxıb!**

**Bu "möcüzə"dən şoka düşən nakam "parlament sədri" havalandı.**

Yenə də sağ olsun bizimkilər.

*Gedib gətirdilər Bakıya.*

*İndi həm hava alır, həm də müalicə.*

Deyirlər arabir "Azərçay" - əsl çay da içir.

❖ ❖ ❖

Şükür Allaha!

Suyumuz bol, yerimiz geniş, çay plantasiyalarının isə ucu-bucağı görünmür.

**Azərbaycan xalqına xəyanət edənlərin, terror əməlləri törədənlərin, "miatsum" deyə qışqıranların hamısına çatar.**

*Koçaryanın, Sarkisyanın, Ohanyanın və digərlərinin çay payını ayrıca saxlayırıq.*

*Zamanı çatanda gətirib içirdəcəyik!*

Bu gün Azərbaycan mümkün olmayanları mümkün edir, cinayətkarlara, xəyanətkarlara ədalət məhkəməsi qarşısında cavab verməyə imkan yaradır.

Hətta onları pulsuz vəkillə təmin edir.

**Çayımız, vəkilimiz varkən, gələnlər gəlsin, bizə əlavə zəhmət verməsin.**

**Dəm çaynikimiz zümzümə edən samovarın üstündə yolunuzu gözləyir!**

**Bəxtiyar SADIQOV**

# Qatillər haqq-ədalət qarşısında cavab verirlər

## Təlxəklər Bakıda istintaq təcridxanasında layiq olduqları cəzanı gözləyirlər




**Zaman 2023-cü il, məkan Bakı şəhəri...**

**1991-ci ildə Xocalının Meşəli kəndində qətliamlar törədən, uşaq, qadın, qoca demədən girovlara tükürpərdici işgəncələr verən erməni canilərinin başçısı Vaqif Xaçatryan Azərbaycan məhkəməsində timsah göz yaşları tökür...**

Üzünə məsum ifadə verərək, yazıq cildində Meşəlidə olmazın işgəncələr verdiyi azərbaycanlılara yaltaqlanır, ana dilimizdə "şirin-şirin" danışaraq erməni yalanlarını quraşdırır...

Amma nə illah edirsə, vaxtı ilə çörəyini yediyi, kirvə olduğu, "dost"luq etdiyi azərbaycanlılara qarşı niyə insanlığa sığmayan cinayətlər törətdiyinə, onların başına müsibətlər açdığına, bütöv ailələri yer üzündən sildiyinə, körpələrin başını kəsdiyinə... görə özünə haqq qazandıra bilmir...

Xaçatryan ağlayır...

Quzu cildinə bürünmüş bu qatilin düz 32 il əvvəl Meşəlidə canlarını faşist ermənilərdən zorla qurtaran və indi məhkəmədə ona qarşı şahidlik edən azərbaycanlılara yönəlmiş kinli baxışlarından isə iblislik, murdarlıq, qaniçənlik yağır...

Erməni cəlladı törətdiyi qanlı əməllərin şahidlərini sağ qoyduğuna görə özünü bağışlaya bilmir, dişi bağırsağını kəsir...

Xaçatryan qızarır, bozarır, hikkəsindən ağlayır...

### Meşəlililərin qatili

Vaqif Xaçatryanın iştirakı ilə Qarabağ iqtisadi rayonunda yaşayan, həmçinin Ermənistandan gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış, Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı hərbi birləşmələrdən ibarət cinayətkar birliyin tərkibində Xocalı rayonunun Meşəli kəndində yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı, təqibetmə, didərgin salma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma cinayətləri nəticəsində ümumilikdə 27 nəfər qəsdən öldürülüb, 21 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 2 nəfər kənd sakini girov götürülüb, 340 nəfər daimi yaşayış yerlərindən didərgin salınıb.

Meşəli soyqırımı ilə bağlı beynəlxalq axtarışda olan Ermənistan vətəndaşı Vaqif Xaçatryan 2023-cü ilin iyul ayında Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılıb və Bakıya gətirilərək Azərbaycan qanunları qarşısında törətdiyi cinayət əməllərinin haqq-hesabını verməyə başlayıb.

Vaqif Xaçatryan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilir.

Məhkəmə prosesləri zamanı əvvəlcə qaniçən Xaçatryan erməni hiyləgərliyi ilə kimliyini inkar etmək yolunu tutaraq, Meşəlidə əliyalın sakinlərin, körpələrin, qadınların qatilinə çevrilənin özü olmadığı yalanını danışdı.

Ancaq məhkəmə irəlilədikcə, nəhayət, xəbis Xaçatryan 1991-ci ilə qədər sıx-sıx gəlib-getdiyi, sakinlərini uşaqdan-böyüyə kimi adbaad bildiyi, bir yerdə çörək kəsdiyi, kirvə olduğu, sonda isə qənim kəsildiyi Meşəli kəndinin sakinlərini "tanımağa", amma yenə də həyata keçirdiyi cinayət əməllərini inkar etməyə başladı.

Həyasız hay məhkəmə zalında vaxtı ilə işgəncə verdiyi, doğmalarını diri-diri yandırdığı, olmazın müsibətlər yaşatdığı azərbaycanlıların düz gözünün içinə baxa-baxa bu insanlıqdan uzaq əməlləri törətmədiyini söylədi.

Lakin qatil Xaçatryan məhkəmədə Fərrux dağındakı postda xidmət etdiyini, silahlandırıldıqlarını da... etiraf etməli oldu.

Meşəli qatilinin məhkəməsi davam edir və çox yaxın zamanda Xaçatryanın bütün qanlı əməllərini boynuna alacağı gün kimi ortadadır.

Çünki hələ digər faktlar bir yana, Meşəli soyqırımının 50-dən çox şahidi bu gün məhkəmədə ifadə verir.

Və həmin şəxsləri adbaad tanıyan, yağlı dilini işə salaraq onlarla "qadan alım", "başına dönüm" kimi ifadələrlə dialoq yaratmağa çalışan, bütün bunların işə yaramadığını, qatil əməllərinə görə mütləq cavab verməli olduğunu görən Vaqif Xaçatryan işgəncə verdiyi, əzizlərini öldürdüyü azərbaycanlıların, kameraların önündə zülüm-zülüm ağlayır...

### Bu, həmin qatildir

Oktyabrın 17-də keçirilən məhkəmə prosesində Meşəli kəndinə qəfil hücum olduğunu söyləyən zərərçəkmiş Kamal Rəcəbov bunları deyib: "Evdə yatmışdım. Gördüm ki, güllə yağış kimi yağır və ermənilər tərəfindən kəndə od vurulub. Onların atəşi nəticəsində sağ budumdan güllə yarısı aldım. Qışın günündə ailəmdən uzaq qaldım. Güllə atışından 2 metrlikdə olan ailə üzvlərimi təxliyə etməyə imkan yox idi. Yoldaşımı və 2 azyaşlı körpəmi itirdim. Onların qadınlara da yazığı gəlmədi. Gözümün qabağında 2 və 17 yaşında olan qızı vəhşicəsinə qətlə yetirdilər".

Prosesdə zərərçəkmiş şəxs qismində dindirilən Təmraz Məmmədov bildirib ki, Əsgəranda ermənilərin qətlə yetirdiyi sakinlərin meyitlərini yığıblar: "Orada bir qadını yandırmışdılar. Dedilər ki, Vaqif yandırıb. Mən Vaqifi hadisələr zamanı görmüşdüm. Ondan qabaq da Meşəlidə döyüşlər zamanı adını eşitmişdim. Laçın postunda saxlanılanda tanıdım, dedim ki, bu, Vaqifdir".

Meşəli hadisələrində atılan ilk güllənin atasına dəydiyini söyləyən zərərçəkən İbrahim Nurməmmədov isə gördüyü dəhşətləri belə dilə gətirib: "Atamı, bibilərimi, qayınatamı, qayınanamı, iki baldızımı, qaynımı öldürdülər. Ümumilikdə, 9 ailə üzvüm şəhid olub. Hadisə günü şəhidləri, yaralıları aradan "Zil" markalı avtomobillə çıxarmışam. Bu Vaqifi çox yaxşı tanıyıram, bu da sürücü olub. Sürücülər bir-birini yaxşı tanıyırlar. Buna ömürlük cəza tələb edirəm".

Zərərçəkmiş şəxsin hüquqi varisi qismində dindirilən Şakir Qonaqov deyib ki, qardaşı Musa Qonaqov Meşəli kəndində şəhid olub: "Könüllü kimi oralarda xidmət edirdi. Hadisələr baş verəndən 3 gün sonra nəşi bizə verildi, həmin gecə dəfn elədik. Döyüş yoldaşları deyir ki, sona qədər vuruşub, son gülləsi ilə özünü öldürüb. Lakin nəşinin üstündə güllə izləri çox idi. Deməli ki, şəhid olmuş qardaşımın nəşinə də güllə vurublar. Vaqif Xaçatryana ən ağır cəza verilsin. Güllələmək lazımdır. Bunlar Azərbaycanın çörəyini yeyiblər, qudurublar".

### Çörəyimiz erməni canilərinə qənim oldu

İstər Vaqif Xaçatryan, istərsə də Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan və digərləri olsun, Azərbaycanın çörəyini yeyib qudurmuş, əlləri azərbaycanlıların qanına batmış qatillərdir.

Allaha şükür, haqqın dönüb dolaşıb yerini tapdığı, çörəyimizin erməni canilərinə qənim olduğu günləri də gördük.

Azərbaycan torpağında - Xankəndidə oturub bizə diş qıcayan, paytaxtımıza göz dikən oyuncaq "prezidentlər", "nazirlər", "deputatlar" indi Bakıda istintaq təcridxanasında oturub Azərbaycan çayı içə-içə qara günlərini düşünürlər.

"Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq", - deyə oktyabrın 15-də Xankəndi şəhərində dövlət bayrağını ucaldan zaman etdiyi çıxışında Prezident İlham Əliyev də bəyan etdi ki, bu canilər öz layiqli cəzalarını gözləyirlər.

### İlahi ədalət

Bütün bunlar İlahi ədalətin yerini tutmasının əyani nümayişidir. Sərsəm və ermənilərin özünü uçuruma aparan "miatsum" ideyasının arxasınca düşərək xalqımıza qarşı etnik təmizləmə, qətliamlar, soyqırımlar törədən canilər bu gün Azərbaycan qanunları qarşısında bir-bir sorğuya çəkilirlər. Bir zamanlar Qarabağda, digər işğal etdikləri ərazilərimizdə əliyalın insanlarımıza divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünən bu qatillər qanlı əməllərinə görə ədalət mühakiməsinə çıxarılıblar. Xocalılılar, meşəlililər, ballıqaylılar, ağdabanlılar, başlıbellilər, gəncəlilər, tərtərlilər, bərdəlilər... onlara müsibətlər yaşadan erməni qaniçənlərinin layiqli cəzalarını aldıqlarını görürlər...

Ermənistanda və dünyada erməni faşizminə dəstək duranlar da görməli və bilməlidirlər ki, Azərbaycan xalqı, dövləti milli maraqlarını təhlükəyə atan, kimliyinə düşmən kəsilən bütün gücləri məhv etməyə qadirdir və bunu 44 günlük Vətən müharibəsində, 23 saatlıq antiterror tədbirlərində erməni faşizminin başını əzərək artıqlaması ilə nümayiş etdirib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ceyhun Bayramov və Sergey Lavrov bölgədəki cari vəziyyəti müzakirə ediblər





Oktyabrın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı tərəflər iki ölkə arasında əməkdaşlıq gündəliyi üzrə mövcud perspektivlər, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi, habelə bölgədəki cari vəziyyət barədə müzakirə aparıblar.

Regionda sülh və sabitliyin təmin olunması, Azərbaycan və Ermənistan arasında bərabər və qarşılıqlı hörmətə əsaslanan davamlı sülhün bərqərar edilməsi istiqamətində göstərilən səylərin davam etdirilməsinin, bu gün bölgədə yaranmış tarixi imkanın əldən verilməməsinin vacibliyi vurğulanıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# ABŞ Dövlət katibinin köməkçisinin müavini regionda mövcud vəziyyət barədə məlumatlandırılıb



Oktyabrın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hakla görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və ABŞ arasında əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə regional vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov hazırda regionda mövcud vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıraraq, Azərbaycan tərəfindən görülən antiterror tədbirləri nəticəsində 30 illik işğal dövrünün qalıqları və əsas təhdid mənbəyi olan erməni silahlı qüvvələrinin və separatçı rejimin mövcudluğuna son qoyulmasının əhəmiyyətini vurğulayıb.

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması, habelə Qarabağ bölgəsində yaşayan ermənəsilli sakinlərin reinteqrasiya prosesinin qarşısında duran ən böyük maneələrdən birinin aradan qaldırıldığı bildirilib.

Nazir bölgədə sülh üçün yaranmış hazırkı şəraitdə ölkəmizin hər zaman olduğu kimi sülh gündəliyinin irəli aparılmasında qərarlı olduğunu, bu xüsusda beynəlxalq ictimaiyyətin də konstruktiv mövqeyinin vacibliyini qeyd edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ali Məhkəməsinin təşəbbüsü ilə Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransı təsis edilib



Oktyabrın 19-da Şuşa şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ədalət mühakiməsi və informasiya texnologiyaları: müasir çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, türkdilli dövlətlərin Ali məhkəmələrinin sədrlərinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov qonaqları "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşa şəhərində salamlamaqdan məmnunluğunu ifadə edib. Sədr bildirib ki, Azərbaycan xalqının tarixində əvəzsiz xidmətlər göstərmiş dahi şəxsiyyət Heydər Əliyev Yeni Azərbaycanın memarıdır. Ulu Öndərin fəaliyyəti Azərbaycanla məhdudlaşmır, beynəlxalq aləmdə böyük nüfuza malik dahi şəxsiyyət türk dünyasında, eləcə də qlobal proseslərdə də müdrik siyasəti ilə böyük iz qoyub. Fəaliyyəti dövründə hər zaman türk dövlətləri ilə əlaqələrinin inkişafına xidmət edən layihələrin təşəbbüskarı, təşkilatçısı olub. Bu gün bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Türk dünyası böyük bir ailədir" deyən Prezident İlham Əliyev türk dövlətləri ilə əlaqələrə xüsusi önəm verir.

Hazırda dünyada gedən mürəkkəb proseslər fonunda dövlətlər və onların məhkəmə sistemləri qarşısında yeni çağırışlar meydana gəldiyini deyən İnam Kərimov bildirib ki, bu çağırışlara cavab vermək üçün məhkəmələrin müasir tələblərə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması və innovativ texnologiyaların tətbiqi, məhkəmə-hüquq sistemləri arasında əlaqələrin genişləndirilməsi zamanın tələbidir. Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin məhkəmə orqanları arasında əlaqələrin genişləndirilməsi, ümumi maraq doğuran məsələlər üzrə fikir və təcrübə mübadiləsinin aparılması məqsədilə Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının təsis edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Sonra Türkiyə Respublikası Ali Məhkəməsinin (Yargıtay) sədri Mehmet Akarca çıxış edərək bildirib ki, Azərbaycanda siyasi birliyi təsis edən dünyaşöhrətli Heydər Əliyev türk dünyasının birliyi üçün də mühüm xidmətlər göstərib. Qeyd edilib ki, məhkəmə sistemini müasir dövrün yenilikləri ilə uyğunlaşdırmaq çox vacibdir. Burada hüquq təhsilindən məhkəmədə şəffaflığın təmin edilməsinə qədər geniş bir prosesi dəyərləndirmək lazımdır. Bu baxımdan türkdilli dövlətlərin qarşılıqlı şəkildə öyrənəcəyi bir çox məsələlər var. Mehmet Akarca Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının yaradılmasının əhəmiyyətinə toxunaraq, məhkəmə-hüquq sahəsində əməkdaşlığın gücləndirilməsinin bütün türk dünyası üçün faydalı olacağına əminliyini vurğulayıb.

Qazaxıstan Respublikasının Ali Məhkəməsinin sədri Aslambek Merqaliyev isə çıxışında Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının yaradılması barədə təşəbbüsü məmnuniyyətlə qarşıladıqlarını bildirib. Qeyd edilib ki, bu konfrans məhkəmə işinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin və məhkəmə inzibatçılığının səmərəliliyinin təmin edilməsi və təcrübə mübadiləsi üçün mühüm platformaya çevrilməlidir. Konfrans əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək və dövlətlər arasında qarşılıqlı fəaliyyətin mühüm tərkib hissəsinə çevriləcəkdir.

Sonra Türkiyə Ali İnzibati Məhkəməsinin (Danıştay) sədri Zeki Yiğit çıxış edərək, müasir dövrdə məhkəmə işlərinə operativ baxılması və süni intellektin tətbiqinin qaçılmaz olduğunu vurğulayıb. Qeyd edilib ki, Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının yaradılması təşkilata üzv ölkələrin məhkəmə sistemini daha yaxından tanımağa imkan verəcək, inteqrasiya və əməkdaşlığı gücləndirəcək.

Özbəkistan Respublikasının Ali Məhkəməsi sədrinin birinci müavini xanım Robaxon Maxmudova çıxış edərək deyib ki, son illər Özbəkistan-Azərbaycan münasibətləri dostluq və strateji tərəfdaşlıq ruhunda uğurla inkişaf edir, bunun mühüm əsasını ölkələrimizin rəhbərləri arasında müntəzəm təmas təşkil edir. Bu kontekstdə məhkəmə orqanlarımız arasında əməkdaşlığı genişləndirmək və dərinləşdirmək məqsədilə Özbəkistan Respublikasının Ali Məhkəməsi Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının yaradılması təşəbbüsünü böyük məmnunluqla qəbul edib. Bildirilib ki, Şuşa Bəyannaməsinin imzalanması və bugünkü konfransın keçirilməsi məhkəmə-hüquq sisteminin inkişafı ilə bağlı fikir və qabaqcıl təcrübə mübadiləsinə xidmət edəcək.

Sonra Qırğızıstan Respublikasının Ali Məhkəməsinin sədri Zamirbek Bazarbekov çıxışında təmsil etdiyi ölkənin məhkəmə sistemi barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. O qeyd edib ki, Qırğızıstanda məhkəmə sisteminin rəqəmsallaşdırılması üzrə işlərin təşkilində türk dövlətlərinin təcrübəsinin öyrənilməsi çox faydalı olacaq.

Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin sədri xanım Narin Ferdi Şefik rəhbəri olduğu məhkəmənin fəaliyyəti barədə danışıb. O da həmkarlarının fikirlərinə qatılaraq, Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının yaradılmasının zəruriliyini və üzv ölkələrin məhkəmə sisteminə verəcəyi faydalardan danışıb.

Türk Dövlətləri Təşkilatı baş katibinin müavini Sədi Cəfərov isə çıxışında təmsil etdiyi təşkilatın türk dövlətləri arasında siyasətdən tutmuş, iqtisadiyyata, enerjiyə, nəqliyyata, turizmə, təhsilə, gənclərə, idmana qədər fərqli sahələrdə əməkdaşlığı genişləndirmək və gücləndirmək üçün səylərini davam etdirdiyini qeyd edib. Bildirilib ki, bu gün təsis edilən yeni əməkdaşlıq formatı türk ölkələri arasında müvafiq sahədə qabaqcıl təcrübə mübadiləsini təmin edəcək, müxtəlif müştərək layihələrin həyata keçirilməsinə, eləcə də birgə təlim proqramlarının reallaşdırılmasına zəmin yaradacaq.

İnam Kərimov yekun nitq söyləyərək, konfrans iştirakçılarına təşəkkürünü bildirib.

Daha sonra Türk Dövlətləri Ali Məhkəmələri Konfransının təsis edilməsi ilə bağlı Şuşa Bəyannaməsinin imzalanma mərasimi baş tutub.

Sonda xatirə fotosu çəkilib.

# Azərbaycanın xarici işlər naziri Avropa ölkələrinin diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa ölkələrinin Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Avropa ölkələri arasında münasibətlərin cari vəziyyəti və perspektivləri, Azərbaycanın son antiterror tədbirlərindən sonra regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh və normallaşma prosesindəki mümkün inkişaf perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından bəri müxtəlif platformalarda öz suveren ərazilərində qanunsuz Ermənistan silahlı qüvvələrinin mövcudluğu məsələsini dəfələrlə qaldırdığını, bunun əsas təhdid mənbəyi olduğunu xatırladaraq, ölkəmizin bu il 19-20 sentyabr tarixlərində həyata keçirdiyi legitim antiterror tədbirlərinin bölgədə sülh və sabitlik üçün əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin təhlükəsizliyi, habelə dil və mədəni hüquqlarına zəmanət veriləcəyinin bildirildiyi, bu məqsədlə reinteqrasiya portalında qeydiyyat həyata keçirildiyi diqqətə çatdırılıb.

Nazir 30 ilə yaxın işğal dövründə qondarma rejim tərəfindən BMT-nin heç bir qurumunun əraziyə səfər etməsinə imkan yaradılmadığı halda, Azərbaycan tərəfindən antiterror tədbirləri başa çatdıqdan dərhal sonra BMT-nin Azərbaycandakı ofisinin əlaqələndirilməsi ilə Cenevrə və Nyu York bölmələrinin nümayəndələrinin də daxil olduğu iki missiyanın Qarabağ bölgəsinə səfərinin təşkil edildiyini bildirib.

Ceyhun Bayramov Azərbaycan və Ermənistanın öz müstəqilliklərini bərpa etməsindən bəri regionda sülh üçün unikal tarixi imkanın yarandığını vurğulayıb.

Daha sonra, nazir Ceyhun Bayramov iştirakçıların suallarını cavablandırıb.

# Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının iclasında Qarabağ Zəfərindən bəhs olunub

Özbəkistanın Səmərqənd şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının 14-cü toplantısında diqqət mərkəzində saxlanılan məsələlərdən biri də Azərbaycan dövlətinin suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsi olub.

AZƏRTAC xəbər verir ki, iclasda TDT Ağsaqqallar Şurasının Azərbaycandan olan üzvü Həsən Həsənov ölkəmizin qazandığı son uğurlar barədə iclas iştirakçılarına ətraflı məlumat verib.

Ermənilərin otuzillik işğal dövründə Qarabağda dini-mədəni irsimizə qarşı törətdiyi soyqırımından danışan H.Həsənov məscidlərin dağıdıldığını, talan edildiyini bildirib. Qeyd olunub ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Qarabağ və Şərqi Zəngəzur düşmən işğalından tam azad edildi. Hazırda Şərqi Zəngəzurda və Qarabağda fasiləsiz bərpa-quruculuq işləri həyata keçirilir. Otuz il ərzində doğma yurdlarına həsrət qalan keçmiş məcburi köçkünlərin əzəli torpaqlarımıza qayıdışına başlanılıb. H.Həsənov bildirib ki, Prezident İlham Əliyevin Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda da Dövlət bayrağını ucaltması ilə Azərbaycanın suverenliyi tam bərpa olundu. O, Azərbaycanın haqlı mövqeyinə daim fəal dəstək verən Türk Dövlətləri Təşkilatına, üzv dövlətlərin hər birinə təşəkkürünü ifadə edib.

Qeyd olunub ki, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülhün əldə olunması regionumuzun inkişafına mühüm töhfə verəcək. Lakin sülhə doğru aparan bu yol bəzi qüvvələri narahat edir. Azərbaycanın sülh çağırışlarına baxmayaraq, təəssüf ki, Fransa erməniləri müharibəyə təhrik edir.

TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım iclasın yekunları ilə bağlı mətbuata bəyanatında Avrasiya coğrafiyasının geosiyasi və iqtisadi əhəmiyyətinin gündən-günə artmaqda olduğunu vurğulayaraq deyib: "Dünya gündəmində ilk sıralarda yer alan mühüm proseslərin məhz bu coğrafiyada yaşanması ölkələrimizin strateji mövqeyinin və türk dövlətləri arasında həmrəyliyin gücləndirilməsinin önəmini daha da artırır. Bunu ən son Azərbaycanın Qarabağ məsələsində bir daha gördük. Otuz il ərzində BMT-nin həll edə bilmədiyi məsələ Azərbaycanın, Prezident İlham Əliyevin iradəsi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyənin dəstəyi ilə döyüş meydanında həll olundu, 44 günlük müharibə Zəfərlə nəticələndi. Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan bayrağını ucaltması ilə "Qarabağ Azərbaycandır!" reallığı bütün dünyaya elan edildi, bu məsələ birdəfəlik həllini tapdı".

B.Yıldırım bu Qələbə münasibətilə Türk dünyası ağsaqqallarının Prezident İlham Əliyevə təbrikini diqqətə çatdırıb.

"Türk dünyası birlikdə güclüdür. Bu ifadə artıq bir şüar deyil, liderlərimizin və xalqlarımızın inandıqları, şahid olduqları həqiqətdir", - deyə TDT Ağsaqqallar Şurasının sədri bildirib.

# Özbəkistanda sosial müdafiə sahəsində əməkdaşlıq sənədi imzalanıb

Özbəkistanda səfərdə olan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Daşkənd şəhərindəki Heydər Əliyev meydanında Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir Sahil Babayevlə Özbəkistan Respublikası Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin direktoru Mansurbek Olloyerov arasında görüş olub. Nazir Azərbaycan və Özbəkistan dövlət başçılarının birgə səyləri nəticəsində iki ölkənin qədim tarixə malik əlaqələrinin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

Ötən dövrdə ölkələrimiz arasında imzalanan sənədlərin önəmi qeyd edilib. Xüsusilə 2023-cü ilin avqust ayında prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyevin imzaladığı "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə"nin strateji tərəfdaşlığın dinamik inkişafında xüsusi əhəmiyyəti diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə orta məktəbin inşa etdirilməsinin iki ölkənin dostluq və qardaşlığının növbəti təzahürü olduğu qeyd edilib.

Son illər ölkəmizdə aparılan sosial islahatlar və əldə olunan uğurlar, DOST konsepsiyası, sosial sahədə rəqəmsal nailiyyətlər barədə məlumat verilib.

M.Olloyerov ölkələrimiz arasında əlaqələrin sosial sahədə də uğurla davam etməsinin məmnunluq doğurduğunu, bu əlaqələrin genişlənməsi üçün mühüm işlər aparıldığını bildirib.

Sosial islahatlar prosesində iki qurum arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu, ötən dövrdə qarşılıqlı səfərlərin, keçirilən görüşlərin əlaqələrin güclənməsində önəmi qeyd olunub.

S.Babayev və M.Olloyerov "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumunu imzalayıblar.

Sənəddə tərəflər arasında sosial qanunvericiliyin təkmilləşdirilməsi və sosial xidmətlərin rəqəmsallaşdırılması, həssas qruplar üçün sosial xidmətlərin təşkili, övladlığagötürmə, mediasiya, əlilliyin qiymətləndirilməsi, reabilitasiya və s. istiqamətlərdə əməkdaşlıq, təcrübə və məlumat mübadilələrinin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan nümayəndə heyəti Özbəkistanda həssas qruplar üçün yaradılmış sosial müəssisələrin iş təcrübəsi ilə də tanış olublar.

# Azərbaycan və Böyük Britaniya arasında hərbi əməkdaşlığın cari vəziyyəti barədə müzakirələr aparılıb

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Krallığının Müdafiə nazirlikləri arasında "6-cı Qərargah danışıqları"na dair görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə əsasən təhlükəsizlik məsələləri, ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə müzakirələr aparılıb. Humanitar sahə, eləcə də minatəmizləmə tədbirləri üzrə keçiriləcək təlim və treninqlərə töhfə məsələləri haqqında danışılıb. Tərəflər birgə hərbi əməkdaşlığın bundan sonra da hər iki tərəf üçün faydalı olacağına əminlik ifadə ediblər.

Sonra qonaqlar "N" saylı hərbi hissəni ziyarət ediblər. Nümayəndə heyətinə hərbi hissənin yaranma tarixi və əsas fəaliyyət istiqamətlərinə dair brifinq təqdim olunub, videoçarx nümayiş etdirilib.

Böyük Britaniya tərəfindən təşkil edilən kurslarda iştirak etmiş hərbi qulluqçularla görüş keçirildikdən sonra, qarşılıqlı hədiyyələr təqdim edilib.

# Baş prokurorun Çinə işgüzar səfəri başa çatıb

Çinə işgüzar səfəri çərçivəsində baş prokuror Kamran Əliyev Çin Kommunist Partiyası Mərkəzi İntizam Komissiyasının və Milli Müşahidə Komissiyasının üzvü Vanq Hongjinlə görüşüb.



Görüşdə dövlətlərimiz və xalqlarımız arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Vanq Hongjin 2008-ci ildə Çinin Siçuan əyalətində baş vermiş dəhşətli zəlzələdən sonra Azərbaycan Prezidenti tərəfindən dövlət büdcəsi hesabına yeni məktəbin inşasını minnətdarlıq hissi ilə xatırladığını qeyd edib.

Kamran Əliyev Çinin Milli Müşahidə Komissiyası tərəfindən Təmiz İpək Yolu Forumunun yüksək və peşəkar səviyyədə təşkil olunması və uğurlu keçirilməsi münasibətilə həmkarını təbrik edib.

Baş prokuror ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə və öncül beynəlxalq təcrübəyə əsaslanan antikorrupsiya islahatları barədə Vanq Hongjini məlumatlandırıb.

Tərəflər ölkələrimiz arasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, sahibkarlıq fəaliyyətində şəffaf biznes mühitinin və rəqabətliliyin təmin olunması sahəsində əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər.

Görüşdə ölkəmizin Çindəki fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov iştirak edib.

Nümayəndə heyətinin Çinə səfəri başa çatıb.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Oktyabrın 20-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məsələsinə baxılıb. Aparılan müzakirələrdən sonra 9 saylı Binəqədi ikinci, 24 saylı Nizami birinci, 25 saylı Nizami ikinci, 27 saylı Sabunçu ikinci, 29 saylı Sabunçu dördüncü, 35 saylı Xətai üçüncü və 50 saylı Abşeron üçüncü seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub.

Media nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin cari məsələlərə baxılıb.

**Qərar № 6/14**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Gülnarə Arif qızı Salmanova 24 saylı Nizami birinci, Vüqar Binnət oğlu Nəsibov 25 saylı Nizami ikinci, Sürəyya Nağı qızı Əzimova 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Anar Natiq oğlu Cavadov 9 saylı Binəqədi ikinci, Hilalə Rahim qızı Həsilova 24 saylı Nizami birinci, İbrahim Ənvər oğlu Rüstəmov 25 saylı Nizami ikinci, Şəhla Rasim qızı Qurbanova 27 saylı Sabunçu ikinci, Sürəyya Nağı qızı Əzimova 29 saylı Sabunçu dördüncü, Gülnarə Arif qızı Salmanova 35 saylı Xətai üçüncü, Vüqar Binnət oğlu Nəsibov 50 saylı Abşeron üçüncü seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.10.2023*

# Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun bəyanatı

Çex Respublikası Senatının regionumuzda baş verən proseslərə dair qəbul etdiyi qeyri-obyektiv, mövcud reallıqları təhrif edən qətnaməsi təəssüf doğurur. Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu olaraq, bu qərəzli qətnaməyə qəti etirazımızı bildiririk.

Növbəti dəfə erməni lobbisinin və onun havadarlarının öz yalan iddiaları ilə beynəlxalq ictimaiyyəti aldatmasının şahidi oluruq. Halbuki, işçi qrupu 18-20 oktyabr 2023-cü ildə Çex Respublikası parlamentində keçirdiyi görüşlərdə Ermənistanın siyasi və hərbi təxribatları, Azərbaycanın sülh təşəbbüsləri, antiterror tədbirlərinin səbəbləri, mahiyyəti və nəticələri, Azərbaycan hökuməti tərəfindən Qarabağ bölgəsinin erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üzrə görülən tədbirlər, sosial və humanitar yönümlü fəaliyyətlər haqda çexiyalı həmkarlarını ətraflı şəkildə məlumatlandırmışdır.

Təəssüflər olsun ki, bəzi Avropa ölkələrinin, xüsusilə Avropa Parlamentindəki destruktiv qüvvələrin təsiri və təzyiqi Azərbaycana qarşı bu cür qeyri-obyektiv addımların atılmasına və sənədlərin qəbul edilməsinə rəvac verir. Bu fakt öz-özlüyündə həmin sənədlərdə irəli sürülən iddiaların nə dərəcədə əsassız olduğunu bariz şəkildə nümayiş etdirir.

Qəbul edilmiş qətnamə bir sıra məqamlarına görə xüsusilə narazılıq doğurur. Azərbaycanın Qarabağ bölgəsinin adının təhrif edilməsini ölkəmizin ərazi bütövlüyünə qarşı atılmış addım kimi qəbul edirik. Çex Respublikası Senatına BMT-nin ixtisaslaşmış qurumlarının bölgəyə iki dəfə səfər etdiyini və mülki əhaliyə qarşı heç bir zorakılıq hallarının baş vermədiyini öz hesabatlarında da təsdiqlədiklərini xatırlatmaq istərdik. Qətnamədə mədəni və tarixi abidələrə zərər yetirilməməsi ilə bağlı səsləndirilən çağırışa münasibətdə isə bildiririk ki, Azərbaycanda bütün mədəni və dini abidələr heç bir ayrı-seçkilik edilmədən dövlət tərəfindən qorunmaqdadır. Biz öz növbəmizdə, çexiyalı həmkarları Ermənistanın həm 30 il ərzində işğal altında qalmış torpaqlarımızda, həm də indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus yüzlərlə tarixi, mədəni və dini abidəni yerlə yeksan etməsi məsələsinə diqqət yetirməyə çağırırıq.

Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu olaraq, Çex Respublikası Senatının qəbul etdiyi bu qətnaməni bir daha qətiyyətlə rədd edirik.

# Leyla Əliyevanın iştirakı ilə növbəti "Bizim həyət"in açılışı olub

Oktyabrın 20-də IDEA İctimai Birliyinin təşəbbüsü ilə təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.













AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş növbəti həyət Binəqədi rayonu, Həmzə Babaşov küçəsi 12, 13, 14, 15, 16, 17, 19, 20, 21 ünvanında 3000 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmizlənməsi və abadlaşdırılması, şəhər ekologiyası üçün xüsusi əhəmiyyət kəsb edən yaşıllıq sahələrinin bərpası, sağlam həyat tərzinin təbliği, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin təmin edilməsidir.

Abadlaşdırılan növbəti həyətdə fiziki məhdudiyyətli və sağlamlıq imkanları zəif olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların əyləncəli vaxt keçirməsi üçün şərait yaradılıb, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 350 ədəd müxtəlif cinsli ağac və 3 min 750 ədəd kol əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən 3 min 50 ədəd adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

# Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun bəyanatı

Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu Avstriya Parlamentinin 19 oktyabr 2023-cü il tarixli birtərəfli, regionda baş verən hadisələri obyektiv əks etdirməyən, beynəlxalq hüquq normalarına və beynəlxalq aləmdə Avstriya Respublikasının neytral mövqeyinə zidd olan bəyanatına qəti etirazını bildirir və regionda etimad və sülhyaradıcı fəaliyyəti hədəf alan bu hərəkəti şiddətlə qınayır.

Qəbul edilən bəyanatda Azərbaycanın öz suveren ərazisində terrorçuluqla mübarizəsi, antiterror tədbirləri zamanı mülki əhalinin ziyan çəkməməsi, Qarabağın erməniəsilli sakinlərinin könüllü olaraq Ermənistana keçməsi, Qarabağı tərk etməyərək orda qalan insanlara Azərbaycanın hər cür yardım göstərməsi, reinterqasiya prosesi üçün xüsusi portal yaratması və Azərbaycan Prezidenti Administrasiyasının reinteqrasiya üçün xüsusi plan bəyan etməsi ilə bağlı həqiqət və faktlar nəzərə alınmamış, regionda mövcud olmuş münaqişənin kökündə dayanan Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, onun ardınca ölkəmizə münasibətdə törədilmiş hərbi işğal və Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qalması öz əksini tapmamışdır.

18 oktyabr 2023-cü ildə Avstriya Parlamentində deputatlarla görüş zamanı bütün bu məsələlər və faktlar tərəfimizdən sübutlarla onların diqqətinə çatdırılmış və deputatları maraqlandıran bütün suallara cavab verilmişdir.

Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu olaraq ölkəmizə qarşı nümayiş etdirilən bu ədalətsiz yanaşmanı qətiyyətlə rədd edirik. Hesab edirik ki, bu cür bəyanatlar Ermənistandakı revanşist qüvvələri Azərbaycana qarşı fəaliyyətlərə təhrik edir və heç bir halda Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə xidmət etmir.

# Qərbi Azərbaycan İcması Avstriya parlamentinin anti-Azərbaycan dalğasına qoşulmasını pisləyib

Qərbi Azərbaycan İcması Avstriya parlamentinin qəbul etdiyi qərəzli qətnaməni və onun başda Fransa olmaqla bəzi ölkələrin başladığı anti-Azərbaycan dalğasına qoşulmasını pisləyir.

AZƏRTAC xəbər verir ki, İcmanın bununla bağlı bəyanatında bildirilir: "Qarabağda kilsələrin qorunmasının vacibliyini vurğulayan Avstriya parlamentinin məsələlərə dini prizmadan yanaşması, vaxtilə işğal altında olan Azərbaycan ərazilərində və Ermənistanda Azərbaycan xalqının mədəni irsinin dağıdılmasına toxunmaması utancverici, irqçi və islamofob yanaşmadır. Avstriya parlamenti öz işi ilə məşğul olmalı, Azərbaycanın suveren ərazilərinə beynəlxalq təşkilatların girişi kimi düşük çağırışlarla ölkəmizin daxili işlərinə müdaxiləyə son qoymalıdır".

# Britaniya Parlamentində Azərbaycanın minatəmizləmə ilə bağlı qlobal təşəbbüsünə dəstək verilməsi üçün çağırış edilib

Britaniya Parlamentində Dayanıqlı İnkişaf Məqsədlərinə dair müzakirələr keçirilib.

Azərbaycanın Böyük Britaniyadakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, müzakirələr zamanı çıxış edən Britaniya Parlamentinin üzvü, Partlayıcı Qurğulardan Qaynaqlanan Təhdidlər üzrə parlament qrupunun sədri Metyu Offord humanitar minatəmizləmə və Dayanıqlı İnkişaf Məqsədlərinə dair iki dəfə Bakıda konfransda iştirak etdiyini bildirib və Azərbaycanda həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə yerində tanış olduğunu vurğulayıb.

Metyu Offord ərazilərin minalardan təmizlənməsi nəticəsində təhsil, məşğulluq və ən əsası insanların öz evlərinə qayıda bilməsi üçün imkan yarandığını bildirib və minatəmizləmə nəticəsində bir neçə Dayanıqlı İnkişaf Məqsədinə nail olmağın mümkünlüyünü vurğulayıb. O, ərazilərin minadan təmizlənməsinin təkcə mövcud Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması deyil, bir sıra digər sahələrdə də müsbət nəticələrin əldə edilməsinə göstərdiyi təsiri nəzərə alaraq, Britaniya hökumətini Azərbaycanın humanitar minatəmizləmənin BMT tərəfindən 18-ci Dayanıqlı İnkişaf Məqsədi elan edilməsi ilə bağlı təşəbbüsünə dəstək verməyə çağırış edib.

Qeyd edək ki, Metyu Offord 2022-ci ilin may ayında Ağdama səfər edib və işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın minatəmizləmə fəaliyyəti ilə yaxından tanış olub.

# Zəngilan Şəhəri Günündə hərbçilərin iştirakı ilə yürüş keçirilib

20 Oktyabr - Zəngilan Şəhəri Günündə hərbçilərin iştirakı ilə yürüş təşkil olunub. AZƏRTAC xəbər verir ki, əvvəlcə Zəngilan Şəhidlər xiyabanı ziyarət edilərək Vətənimizin azadlığı uğrunda canından keçən əziz şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Zəngilan Şəhəri Günü münasibətilə Zəngilan Konqres Mərkəzinin qarşısında yürüş keçirilib. Yürüşdə Daxili İşlər Nazirliyinin, o cümlədən Daxili Qoşunların əməkdaşları, eləcə də Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti iştirak ediblər.

Düz 3 il bundan öncə Zəngilan şəhəri 44 günlük Vətən müharibəsində düşmən tapdağından azad edilib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 20 Oktyabr - Zəngilan Şəhəri Günü kimi qeyd olunur.



# Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı davam edir: daha 83 sakin Laçına qayıdıb





Oktyabrın 20-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə (83 nəfər) köçürülüb.

AZƏRTAC xəbər verir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb.

Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi dərin ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Laçın şəhərində 295 ailənin (1135 nəfər) daimi məskunlaşması təmin ediləcək.



QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR
dirçəliş yolundadır



# Qarabağda ucalan bayraqlarımız vüqarımızdır

"Dövlət müstəqilliyinin qorunması və suverenliyin təmin edilməsi ölkə rəhbərindən çox asılıdır. Rəhbər düşünülmüş, reallıqlara əsaslanan siyasi gedişləri ilə ölkəni çiçəkləndirə, inkişaf etdirə, əks halda, şovinist, insanlığa yad addımları ilə isə öz xalqını uçuruma yuvarlandıra bilər. Biz bunu Azərbaycan-Ermənistan müqayisəsində aydın görə bilərik".



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyir ki, bu qələbələr möhtəşəm və unudulmazdır: "Biz qalibik, mübarizik, inkişafdayıq və dünyada söz sahibiyik. Ermənistan isə məğlubdur, dalandadır, onun-bunun kölgəsindədir, müstəqil deyil, riyakar və xəyanətkardır".

Qəzetimizə açıqlamasında komitə sədri deyib ki, bu zəfərlərin müəllifi kimi Prezident İlham Əliyevin gərgin fəaliyyəti, uzaqgörən siyasəti sayəsində dövlətimiz dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin 20 illik fəaliyyəti dünya üçün bir örnəkdir. Çünki bu fəaliyyət ədalətə, haqqa, bəşəri dəyərlərə, humanizmə, demokratiyaya, insan azadlığına, inkişafa və xoşbəxt gələcəyə hesablanmışdır. Prezident, Ali Baş Komandan İlham Əliyev ölkə rəhbəri kimi 20 illik fəaliyyətinin hesabatını Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə və işğaldan azad olunmuş digər ərazilərdə Azərbaycan bayrağını ucaltmaqla verdi. Prezident Ulu Öndərin, şəhidlərin ruhunu sevindirdi. Yurdlarından didərgin salınan insanların ağrılarına, acılarına məlhəm qoydu, Azərbaycan xalqını, bütün türk dünyasını qürurlandırmaqla, sevindirməklə bərabər, həm də öz müqəddəs borcunu, vəzifəsini yerinə yetirdi.

Tahir Rzayev vurğulayıb ki, işğal altında olan bütün ərazilərdə Azərbaycan bayrağının dalğalandırılacağı arzusu ilə 20 il yollar axtaran, planlar quran, siyasi gedişlər edən Prezidentimizin qələbə sevincli çıxışında səsləndirdiyi fikirlər ürəkləri riqqətə gətirməklə yanaşı, dövlətimizin rəhbərinin müdrikliyini, humanistliyini, vətənə, torpağa, xalqa bağlılığını bütün dünyaya nümayiş etdirdi: "Prezidentimiz göstərdi ki, fəaliyyəti dövründə qələbələrin qazanılması, iqtisadiyyatın dinamik inkişafı, ordunun formalaşması və təkmilləşdirilməsi, xalqın birliyi, ölkənin beynəlxalq aləmdə söz sahibi olması üçün möhkəm zəmin yaradılmış, çox mühüm iqtisadi-sosial layihələr, proqramlar həyata keçirilmişdir. 44 günlük müharibənin, 23 saatlıq antiterror tədbirlərinin, görüşlərin, müzakirələrin uğurları, suverenliyimizin və müstəqilliyimizin qorunub möhkəmləndirilməsi, bütün ərazilərimizdə bayraqlarımızın dalğalanması məhz yaradılmış möhkəm zəminin nəticəsidir".

Komitə sədri, həmçinin ölkəmizin haqlı, ədalətli mübarizəsinə, torpaqlarımızın işğaldan azad edilməsinə qarayaxanlardan da bəhs edib. Deyib ki, başda Fransa olmaqla bəzi Avropa ölkələri, onların hakimiyyət dairələri bir çox hallarda hadisələrə ikili standartlardan yanaşır, ədalətsiz mövqe nümayiş etdirir, ermənilərin puluna, maliyyə vəsaitlərinə allanaraq anti-Azərbaycan təbliğatını gündən-günə genişləndirirlər. Avropa Parlamentinin, AŞ PA-nın son günlərdə qəbul etdikləri qətnamələr, bəzi beynəlxalq təşkilatların qərarları göstərir ki, bu qurumlar münasibətlərin yaxşılaşdırılmasına, münaqişələrin qarşısının alınmasına deyil, əslində, yeni müharibə ocaqlarının qızışdırılmasına, xalqların bir-birinə qarşı qoyulmasına xidmət edirlər.

Tahir Rzayev qeyd edib ki, Azərbaycan Prezidenti yalana, böhtana hesablanan qərarların, bəyanatların cavabını işğaldan azad olunan şəhər və rayonlarımızda, ərazilərimizdə üçrəngli bayrağımızı ucaltmaqla, xalqımızı qürurlandırmaqla verir. Qəbul olunmuş saxta bəyanatları, qərarları rədd edir və həmin sənədlərin heç bir hüquqi normaya əsaslanmadığını bildirməklə öz siyasətini uğurla davam etdirir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Sürətlə və keyfiyyətlə

## Qarabağ və Şərqi Zəngəzurun quruculuğu Azərbaycanın qüdrətinin dinc meydandakı ifadəsidir

**Azərbaycanın yenilməz gücü və yüksək potensialı təkcə hərb meydanında deyil, Qarabağ və Şərqi Zəngəzurda aparılan tikinti-quruculuq işlərində də özünü göstərir. İkinci Qarabağ savaşından qısa müddət sonra işğaldan azad edilmiş ərazilərdə başlanılan bərpa və quruculuq işləri böyük sürətlə davam edir. Qarabağ və Şərqi Zəngəzurda sıfırdan ən müasir infrastruktur yaradılır, yeni yollar, tunellər, hava limanları, elektrik stansiyaları tikilir, kəndlər, qəsəbələr salınır.**



Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işləri barədə danışıb. Bildirib ki, Azərbaycanın suverenliyi tam bərpa edilib, torpaqlarımız işğaldan azad olunub. İndi əsas gözləntimiz Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması, Zəngəzur dəhlizi və bir sıra kəndlərlə bağlı məsələlərin həllini tapmasıdır. Əsas milli prioritetimiz isə azad olunmuş ərazilərimizin bərpasıdır.

"44 günlük Vətən müharibəsi başa çatandan qısa müddət sonra ərazilərimizdə minalardan təmizlənmə prosesinə və dinc quruculuq işlərinə başlanıb. Artıq strateji əhəmiyyətli iki hava limanının tikintisi başa çatıb və istismara verilib. Həmçinin Şuşa şəhəri, Füzuli, Zəngilan, Cəbrayıl və digər istiqamətlərdə çox mühüm işlər həyata keçirilib. Hazırda işğaldan azad olunmuş bütün ərazilərimizdə yeni infrastruktur layihələri həyata keçirilir, müxtəlif rayon və kəndlərdə yolların çəkilməsi, tunellərin tikilməsi, yeni yaşayış məntəqələrinin salınması, mədəni və dini abidələrimizin yenidən bərpası istiqamətində mühüm addımlar atılır", - deyə deputat qeyd edib.

Arzu Nağıyevin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işləri, cənab Prezidentin verdiyi tapşırıqların icrası, eyni zamanda Prezident və xanımı Mehriban Əliyevanın iştirakı ilə reallaşdırılan təməlqoymalar, onların dəfələrlə həmin ərazilərə səfərləri ilə daha böyük əhəmiyyət kəsb edir. Görülən işlər həm də ona görə qiymətlidir ki, bu prosesin son nöqtəsi Böyük qayıdışın tezliklə başa çatdırılmasına hesablanıb.

Deputat vurğulayıb ki, Azərbaycan dövləti vaxtilə erməni qəsbkarlarının, təxribatçı və terrorçularının xalqımıza qarşı törətdikləri amansız qətllərinin, barbar davranışlarının fəsadlarının aradan qaldırılması üçün bütün tədbirləri görür: "Postmüharibə dövründə aparılan dinc quruculuq işlərinə fasilə verilmir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə mütəmadi olaraq səfər etməsi Böyük qayıdışı daha da sürətləndirir. Dövlət başçısı yeni layihələrin həyata keçirilməsinə birbaşa özü nəzarət edir. Biz dünyaya sübut edirik ki, döyüşərək öz ərazi bütövlüyümüzü bərpa etməyi bacardığımız kimi, dinc quruculuq işlərini də ən yüksək səviyyədə həyata keçirməyi yaxşı bilirik".

Arzu Nağıyev deyib ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinin dünya standartlarına uyğun şəkildə aparılması xüsusi önəm kəsb edir: "Biz azad edilmiş ərazilərimizdə gördüyümüz işlərlə və reallaşdırdığımız mühüm layihələrlə həm də vaxtilə xalqımızın bu torpaqlardakı izini itirmək istəyən ermənilərə və onların havadarlarına dərs veririk. Bunu bütün dünya, habelə dostlarımız və düşmənlərimiz də görür. Sözsüz ki, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq işləri dostlarımızı sevindirəcək, düşmənlərimizi isə kədərləndirəcək qədər böyükmiqyaslıdır. Bu, Ermənistan və havadarlarına ciddi dərs olmalıdır".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***



# Böyük qayıdışın təntənəsi

## Yenidən qurulan şəhər və kəndlərdə indiyədək 2896 keçmiş məcburi köçkün məskunlaşıb

İşğal dövründə dağıdılıb viran qoyulan torpaqlarımız sürətlə bərpa edilir. Ötən 3 ilin ən böyük həqiqətlərindən biri budur ki, güclü iqtisadiyyata malik Azərbaycan postmüharibə dövründə qarşıya qoyduğu bütün məqsədləri, xüsusilə də Böyük qayıdış proqramını uğurla reallaşdırmaq iqtidarındadır.





Keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın və Füzuliyə keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər sürətlə davam etdirilir.

### Laçına daha 23 ailə qayıtdı

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə (83 nəfər) köçürülüb.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 295 ailə, yəni 1135 nəfərin daimi məskunlaşması təmin edilib.

İndiyədək 133 ailə (649 nəfərə) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 295 ailə (1135 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 21 ailə (94 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bugünədək 2 min 896 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub.

### 2026-cı ilə qədər ayrılan vəsaitin ümumi həcmi 22,4 milyard manat təşkil edəcək

Ötən üç il suverenliyimizin bərpası, həmçinin işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi ilə yadda qalıb. Böyük zəfərimizdən qısa zaman keçməsinə baxmayaraq, düşmən tapdağından azad edilən torpaqlarımızda sürətlə bərpa-quruculuq işləri aparılır, kəndlər və şəhərlər yenidən tikilir. Bərpa işləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərdə yeni infrastrukturların yaradılması, Qarabağa və Şərqi Zəngəzura sərmayələrin cəlb edilməsi və digər mühüm tədbirlər bu torpaqlarda layiqli və dayanıqlı məskunlaşmanın vaxtında, yüksək səviyyədə təmin olunması üçün böyük əhəmiyyət kəsb edir. Yol infrastrukturunun yaradılması, yeni avtomobil və dəmir yollarının çəkilməsi, hava limanlarının tikilməsi, bütün şəhərlərin baş planlarının təsdiqlənməsi və digər addımlar həyata keçirilən işlərin sistemli xarakter daşıdığını göstərir.

Maliyyə Nazirliyi Böyük qayıdışa dair I Dövlət Proqramının icrası üçün tələb olunan vəsaitin həcmini açıqlayıb. "2024-2027-ci illər üzrə Ortamüddətli Büdcə Çərçivəsi"ndə bildirilib ki, 2023-cü ildə icraçı qurumlar tərəfindən təqdim edilmiş son məlumatlara əsasən, Böyük qayıdışa dair I Dövlət Proqramının icrası üçün nə qədər vəsaitin tələb olunduğu müəyyənləşib.

2020-2022-ci illərin dövlət büdcəsindən bu məqsədə təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. Cari ilin dövlət büdcəsində sözügedən proqramın icrası üçün 5,3 milyard manat, 2024-2026-cı illərdə ümumilikdə 10,6 milyard manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulur. Beləliklə, proqnozlaşdırılan vəsait də nəzərə alındıqda proqramın icrası üçün 2020-2026-cı illər üzrə ümumilikdə ayrılacaq vəsaitin həcmi 22,4 milyard manat olacaq.

### 2026-cı ilin sonunda Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfər yaşayacaq

Prezident İlham Əliyev oktyabrın 17-də Füzuli Şəhəri Günündə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlət başçısı bu bayram münasibətilə füzulililəri şəhərin işğaldan azad olunmasının üçüncü ildönümü münasibətilə təbrik edib: "Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram".

Ali Baş Komandan həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələrin dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit etdiyini bildirərək deyib: "Bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edir. Xüsusilə, bildiyiniz kimi, Azərbaycanda iki dəfə Milli Şəhərsalma Forumu keçirilmişdir, Ağdamda və Zəngilanda və orada bizim bütün layihələrimiz təqdim edilmişdir. Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndirirlər, çünki doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni rahat yaşamaq üçün bütün infrastruktur, şərait var".

Dövlət başçısı Füzuli şəhərində 800-dən çox insanın yerləşdiyini, ilin sonuna qədər burada təqribən 2 minə yaxın insanın yaşayacağını vurğulayıb. Ölkə rəhbəri qeyd edib ki, Böyük qayıdış proqramının birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda Füzuli rayonunda 22 min, bütövlükdə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Qərəz və böhtan yuvaları

## Avropada bəzi təşkilatların və dövlətlərin anti-Azərbaycan mövqeyi riyakarlıqdır



"Avropa Parlamentinin və bir sıra dövlətlərin, o cümlədən Fransa, Lüksemburq, İsveçrə, İspaniyanın yüngül, bir o qədər də dayaz və özünü biabır edən qərəzli qərarları, qətnamələri, bəyanatları bizə çoxdan məlumdur. Biz, həmçinin beynəlxalq hüququn hansı gücə sahib olduğunu, kimlərin əlində oyuncağa çevrildiyini də çox yaxşı bilirik".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Avropa Parlamentinin, eyni zamanda bir sıra dövlətlərin qərəzli qərarlarına və yanaşmalarına münasibət bildirərkən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Deputat qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən əndişələnən, yersiz bəyanatlar səsləndirən, hətta buna görə yuxusu ərşə çəkilən dövlətləri, ölkəmiz 30 il münaqişənin sülh yolu ilə həll edilməsinə cəlb etmişdi, amma bunun heç bir faydası belə olmamışdı: "Nəticədə nə gördük?! Əllərindən bir iş gəlmədi, yalnız mənasız danışıqlar apardılar, bir milyondan artıq məcburi köçkünün hüquqlarını düşünmədilər. Elə ona görə də həmin ölkə və təşkilatların insan hüquqları ilə bağlı fikirlərinə inanmaq mümkün deyil. Niyə o zaman beynəlxalq hüquqa istinad etmirdilər?! Məgər BMT-nin məlum qətnamələrindən xəbərləri yox idi?! Vaxtı 30 il uzatmaqda məqsədləri nə idi?! Elə bilirdilər ki, Azərbaycan torpaqlarını Ermənistana ərmağan edəcək?

AHİK sədri vurğulayıb ki, bütün bunların fonunda işğalçı, azərbaycanlılara qarşı soyqırımları törətmiş Ermənistanın havadarları məğlub oldular. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu təcavüzkar dövlətin bütün işğal planlarını puça çıxararaq bölgəni bataqlıqdan xilas etdi, yeni vəziyyət formalaşdırdı. Bu gün riyakar xarici qüvvələr istəsələr də, istəməsələr də bu reallıqları qəbul etməyə məcburdurlar, çünki bu reallıq dəyişməzdir, beynəlxalq hüquqa əsaslanır, sülh və təhlükəsizliyə, tərəqqiyə, yeni inkişafa istiqamətlənib.

Deputatın fikrincə, Avropa Parlamentinin Azərbaycan əleyhinə qəbul etdiyi qərəzli qətnamə isə orada oturanların, sənədin lehinə səs verənlərin bölgədəki proseslərdən xəbərsiz olduqlarını göstərir: "Nə qədər gülünc olsa da, təşkilatın qətnaməsində iddia olunub ki, bölgədə beynəlxalq hüquq və normalar pozulub. Əgər iddialarında haqlıdırlarsa, bununla bağlı bir fakt ortaya qoysunlar. Nə qədər utanmaz və abırdan-həyadan kənar olasan ki, beynəlxalq hüquqdan danışasan. Məgər bunu bütün məsələlərdə ayaqlar altına atan onlar deyilmi?! Dünyanın müxtəlif yerlərində qərəzli mövqelərini yeritmək üçün artıq beynəlxalq hüquqa geyindirmədikləri don qalmayıb".

S.Möhbalıyev bildirib ki, Qərb dairələri indi Azərbaycanı Qarabağda "etnik təmizləmə"də günahlandırır. Halbuki Qarabağda yaşayan erməni sakinlərin ərazidən könüllü şəkildə getdiyi hamıya məlumdur, bu, göz qarşısında baş verdi: "Bəs bizə qarşı absurd ittihamlar səsləndirənlər 30 il əvvəl Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləməni görməyiblər?! Daha əvvəl isə bu siyasət əzəli Azərbaycan torpaqları olan və indi Ermənistan adlanan ərazidə həyata keçirilib. 200 minə yaxın insan ata-baba yurdlarından didərgin salınıb, əmlakları mənimsənilib. İndi biz onların gözünə hansı ölçüdə eynək taxaq ki, bu həqiqətləri görə bilsinlər?"

Deputatın sözlərinə görə, Avropa Şurası Nazirlər Komitəsinin Strasburqda keçirilən iclasında Avropa İttifaqı nümayəndə heyətinin Ermənistan-Azərbaycan münasibətlərinə dair bəyanatla çıxışı qəzəb doğurur. Bu bəyanatda artıq arxivə qovuşmuş ifadələrdən, yalan və əsassız "blokada"dan danışılır: "Təbii ki, Avropa Parlamentinin, Avropa Şurası Nazirlər komitəsinin, bəzi dövlətlərin utanmaz, mənasız, rüşvət qoxuyan qərarlarının, bəyanatlarının Azərbaycan dövlətinə təsiri olmaz, ölkəmizi haqq yolundan döndərə bilməz. Bizim yolumuz düzgün yoldur və beynəlxalq hüquqa əsaslanır. Biz onlara tövsiyə edərdik ki, erməni lobbisinin çaldığı havalara oynayaraq özlərini gözdən salmasınlar",

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Avropa Parlamentinin ikiüzlülüyü

Azərbaycan öz gücünə Qarabağ problemini birdəfəlik həll etdi. Bundan əvvəl isə vasitəçi obrazına girmiş, əslində, problem yaradan, Cənubi Qafqazı dünyanın qaynar nöqtələrindən birinə çevirib bundan öz məqsədi üçün istifadə edən dövlətlərə problemin sülh yolu ilə həlli üçün kifayət qədər şans da vermişdi.

Amma bu olmadı. "Problemin hərbi yolla həlli yoxdur", deyib işğalçı Ermənistana hər cür siyasi-hərbi dəstək verən dövlətlər Azərbaycanın problemi hərb yolu ilə həll etməsindən sonra üzlərini çevirib əsl simalarını göstərdilər. Əllərində olan bütün imkanlarını səfərbər edib dövlətimizə qarşı təzyiq etməyə, haqq işimizə qara ləkə vurmağa çalışdılar…




Sirr deyil ki, Qarabağda separatçılıq hərəkatı Fransa mətbuatında çıxan bir yazı ilə alovlanmışdı. Daha sonra Fransada fəaliyyət göstərən erməni lobbisinin nümayəndələri Fransaya səfərə gedən SSRİ rəhbəri Mixail Qorbaçov və onun xanımı Raisa Qorbaçova ilə görüşüb Qarabağın Ermənistanın tərkibinə verilməsinə yardımçı olmasını istəmişdilər… O gündən də Qarabağın qara günləri başlamışdır. Qarabağı işğal edən Ermənistan silahlı qüvvələri fransız hərbi mütəxəssislərin iştrakı ilə bu ərazilərdə daha da möhkəmlənmək məqsədilə istehkamlar tikib, "keçilməz" sədlər yaratdılar. Bir milyondan çox insanımız yurdundan, evindən didərgin düşəndə, Xocalıda əsrin faciəsi törədiləndə Avropada indi insan hüquqlarından danışanlar, hər gün əleyhimizə bir qətnamə qəbul edənlər heç səslərini də çıxarmadılar. Belə bir dəhşətli faciənin baş verdiyini görməzdən gəldilər. Öldürən xristianlar, ölənlər də müsəlmanlar olduğu üçün başımıza gətirilən müsibətlərə, olaylara "lal ol, kar ol, kor ol" prinspi ilə yanaşdılar. Bütün əsas güclər Ermənistanın arxasında durdu.

Oktyabrın 15-də Xankəndidə çıxış edən Müzəffər Ali Baş Komandan İlham Əliyev ozamankı tarixi hadisələri xatırladaraq dedi: "Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt -1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı". O illərdə Ermənistanı silahlandırıb Azərbaycan ərazilərini işğala həvəsləndirən və təhrik edən güclər, torpaqlarımız azadlığına qovuşduqdan sonra daha da aqressivləşərək ölkəmizə qarşı təzyiq kompaniyasına start verdilər. Ermənistanın Qarabağda törətdiyi vandalizim əslində bu dövləti dəstəkləyən, onu himayə edənlərin utancı olmalıdır. İşğal olunmuş ərazilərdə viran qoyulmuş evlər, dağıdılıb məhv edilmiş infrastruktur erməni vəhşiliyinin açıq sübutudur. İşğaldan azad edilmiş ərazilərdə məhkəməsiz, sorğu-sualsız diri-diri torpağa gömülmüş insanların aşkarlanan kütləvi məzarlıqlarını görüb səsini çıxarmayan, Azərbaycanı insan hüquqlarını pozmaqda ittiham edən, "insanpərvər" Qərbin üz qarasıdır.

Demək istədiyimiz odur ki, Cənubi Qafqazda məkrli niyyətlərini həyata keçirə bilməyən Qərb Azərbaycanla Ermənistan arasında mövcud vəziyyətə, sentyabrın 20-də həyata keçirilmiş antiterror tədbirlərinin mahiyyətinə və nəticəsinə ədalətlə yanaşmır, ikiüzlülüyündən, ikili standartlardan əl çəkmir. Azərbaycan antiterror tədbirləri zamanı yalnız dövlətimizin suverenliyinə təhlükə olan legitim hədəflərə zərbə endirdi. Məqsəd regionda sülhə və sabitliyə təhlükə olan aqressiv separatizmi aradan qaldırmaq idi. Cəmi bir sutkadan da az bir vaxta buna nail olmaqla ölkəmiz regionda davamlı sülhə və sabitliyə öz töhfəsini vermis oldu.

Görünən budur ki, regionda sülhün, sabitliyin yaranmasında maraqlı olmayan Qərb dairələri böhtan dolu, əsassız ittihamlarla ölkəmizin gördüyü haqlı işi haqsız çıxarmağa çalışırlar. Heç bir əsas olmadan "etnik təmizləmə" siyasəti həyata keçirən ölkə kimi adımızı hallandırmağa başlayıblar.

Ən acınacaqlısı da budur ki, maraqlı dövlətlər öz məkrli niyyətlərini, ikiüzlü siyasətlərini, Avropa Parlamenti, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların çətiri altında həyat keçirirlər.

Təcavüzkar Ermənistana ardıcıl maliyyə və humanitar yardımının göstərilməsi, bu ölkənin silahlandırılması istiqamətində atılan bütün addımlar, Aİ-nin müşahidə missiyası adı ilə bu ölkəyə yerləşdirilmiş hərbiləşmiş missiyasının müddətinin uzadılması ehtimalının yüksək olması, Paşinyan başda olmaqla Ermənistan rəsmilərinə edilən siyasi reveranslar Qərbin problemə əvvəldən ikili standartlarla və riyakarcasına yanaşmasını sübut edir.

Qəribə burasıdır ki, planetimizə bəşəri bəla gətirmiş Almaniyanın və Fransanın moderatorluğu ilə bu kampaniyaya İspaniya və Niderland da qoşulub.

Əhalisinin 18 faizi katalonlardan, 1,5 fazi basklardan ibarət olan İspaniyada milli ayrıseçkilik dövlət siyasətinin özəyini təşkil etdiyi üçün bura həmişə Qərbi Avropanın "qaynar nöqtəsi" adlandırılıb. Xatırladaq ki, katalonlar ispanlardan daha qədim dövlətçiliyə malikdirlər. İspanlar bu xalqın müstəqillik cəhdlərinin qarşısını ən sərt qaydalarla alıblar. Bir zamanlar hər cür insan hüququndan məhrum olan Katalon və Bask xalqlarına bayraqlarını asmaq, milli dildə danışmaq, hətta milli rəqsləri ifa etmək belə qadağan olunmuşdu. Öz keçmişini "unudan", öz gözündə tir görməyən İspaniya Senatının antiterror tədbirimizi "Azərbaycanın regional təhlükəsizlik və sabitliyə təhlükə yaradan əsassız hücum" adlandırması gülünc doğurur. Öz ölkələrində problemlərini həll edə bilməyən, ən adi insan hüquqlarını heçə sayan avroidlərin bizə insan hüququndan dərs keçmək həvəsi traqikomik görünür. Bizdə buna "öz gözündə tiri görməyib, özgə gözündə tük axtarmaq" deyirlər. Cənablar, Azərbaycan 44 günlük Vətən müharibəsi zamanı da, 2023-cü il sentyabrın 20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı da bütün beynəlxalq prinsiplərə əməl etdi. İllərdir torpaqlarımızda yaşayıb, asi düşüb və bizə silah çevirib günahsız insanları qətlə yetirən erməni əhalisinə Azərbaycan nümunəvi davranışı ilə insanlıq nə olduğunu anlamayanlara əxlaq dərsi keçdi. Əxlaqı olmayanlar, insanlığı siyasi maraqlarına, dini təəssübkeşliklərinə qurban verənlərin bu dərsdən nəticə çıxarmamaları heç də qəribə görünmür. Öldürdükləri insanların sümüklərini muzeylərində nümayiş etdirən "mədəni" Qərb ölkəsindən ayrı nə gözləmək olar? Aİ-nin, Avropa Parlamentinin çətiri altında simasını gizlədib üstümüzə gələn simasızın kim olduğu bəllidir. Amma daha bəsdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Erməni tribunasına çevrilən təşkilat

## Səlibçi hücumları Avropa Parlamentinə yalnız utanc gətirir



44 günlük Vətən müharibəsindən və Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsindən sonra ölkəmizə qarşı qərəzli mövqedə dayanan müxtəlif dövlətlər və beynəlxalq qurumlar daha da "fəallaşıblar".

Belə ki, Qərb dairələri tərəfindən Azərbaycanı "etnik təmizləmə" siyasəti həyata keçirən ölkə kimi təqdim etmək cəhdləri son zamanlar özünü daha çox büruzə verir.

Bu xətt Avropa Parlamentinin, xüsusən də Fransanın mövqeyində aydın görünür. Ermənipərəst Fransanın təşəbbüsü ilə Avropa Parlamentinin ard-arda Azərbaycana qarşı qəbul etdiyi riyakar bəyanatlar da bunun bariz nümunəsidir.

AP-nin rüşvətxor deputatları erməni lobbisinin puluna olan hərisliklərindən ölkəmizə qarşı ədalətsiz yanaşma sərgiləyirlər. Avropa Parlamenti faktiki olaraq, erməni yalanlarının ayaq açıb yeridiyi platformaya çevrilib. Bu qurumun yaxın günlərdə tribunasında Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanı ittiham edən çıxışına dəstək verməsi də bunu bir daha təsdiqləyir.

Milli Məclisin deputatı Aydın Mirzəzadə məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Avropa Parlamenti çox vaxt öz səlahiyyətinə aid olmayan məsələlərə münasibət bildirir. Bu təşkilat sanki Avropanın bütün problemlərini həll edib və üzərinə düşən vəzifələri artıqlaması ilə yerinə yetirib, indi isə başqa məsələlərə keçib: "Bu yanaşma Azərbaycanla bağlı münasibətdə də özünü daha bariz göstərir. Qurum vaxtaşırı ölkəmizlə əlaqədar düzgün olmayan, həqiqətləri təhrif edən, dövlətimizin müstəqilliyinə qarşı yönələn təhdid dolu bəyanatlar qəbul edir. Bu yolverilməzdir. Belə hərəkətlər Azərbaycanın suveren hüquqlarını qorumaq qətiyyətini zəiflətmək məqsədi güdür".

Avropanın müəyyən dairələrinin Azərbaycanın müstəqil siyasət yürütməsini həzm edə bilmədiyini qeyd edən deputat deyib ki, onlar çox istəyirlər ki, Azərbaycanın təbii sərvətləri transmilli şirkətlərin ixtiyarında olsun, dövlətimizin daxili və xarici məsələləri Avropanın müəyyən paytaxtlarındakı kabinetlərdə müzakirə edilib qərar qəbul olunsun. Amma bunların heç biri qətiyyən olmayacaq. Azərbaycan müstəqilliyini ona görə bərpa etməyib ki, kimlərinsə təsiri altında olsun: "Kimin nə qətnamə qəbul etməsindən, qərəzli münasibətindən asılı olmayaraq, Azərbaycan müstəqil siyasətini davam etdirəcək. Beynəlxalq birlikdə yüksək nüfuzunu daha da artıracaq. Avropanın müəyyən dairələrinin Azərbaycana qarşı qərəzli mövqeyinə baxmayaraq, biz bu tezlikdə Avropa ölkələri ilə münasibətlərimizi daim yaxşılaşdırmaqda, ikitərəfli əlaqələri daha yüksək səviyyəyə qaldırmaqda maraqlıyıq".

A.Mirzəzadə bildirib ki, Azərbaycan bundan sonra da dost Avropa ölkələri ilə münasibətlərinin möhkəmlənməsinə diqqət edəcək. Müəyyən dairələrin Azərbaycan əleyhinə fəaliyyətinə tarix həmişə mənfi qiymətini verib və bundan sonra da verəcək.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Fransanın işğalçı ölkə olmasına heç bir şübhə yoxdur

## Qurtuluş arzusunda olan bəzi xalqların bu ölkə tərəfindən çəkdikləri müsibətlər bunu deməyə əsas verir

Fransanın özünü dünyaya insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi təqdim etmək cəhdləri ona görə qeyri-səmimi, hətta gülünc görünür ki, bu ölkənin tarixi müstəmləkəçilik siyasəti yürütməklə, soyqırımları törətməklə, insanlara verdiyi zülmlərlə, işgəncələrlə "zəngindir".

Afrika ölkələrində müsəlman əhaliyə qarşı dəhşətli qırğınlar törədən, təkcə Əlcəzairdə 1,5 milyondan artıq insanı amansızlıqla qətlə yetirən Fransa indi də işğalçılıqdan, soyğunçuluqdan, zalımlıqdan əl çəkməyib. Hələ də müstəmləkəsi altında saxladığı dövlətlər, zülmlərindən cana doymuş xalqlar var.

Yüz illərdir ki, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozan Fransanın mənfur əməllərindən biri də xalqlar arasında sülhün əldə edilməsinə, sabitliyin, əmin-amanlığın bərqərar olmasına hər vasitə ilə mane olmağa çalışmasıdır. Belə görünür ki, bu müstəmləkəçi dövlət özü kimiləri - işğalçıları, cinayətkarları dəstəkləyir.

Azərbaycanın mövqeyi isə hər zaman dəyişməzdir. Dövlətimiz, xalqımız bütün dünyada sülhə nail olunmasını, xalqların təhlükəsiz şəraitdə, əmin-amanlıq içərisində, azad yaşamasını istəyir və buna səy göstərir.

Dünən Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Dövlətimizin başçısı bildirib ki, Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var, belə ölkələrdən biri və birincisi Fransadır. Prezident İlham Əliyev müraciətində Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, fransız silahlı qüvvələrinin etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırıma məruz qoyduğunu qeyd etdi: "XX əsrdə 30 il ərzində Fransız Polineziyasında



Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqı tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir".

Fransa dünyada ən çox mina istifadə etmiş ölkələrdən biri kimi də çox faciələr törədib. Əlcəzairin dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutmasının da səbəbkarı Fransadır. Prezident İlham Əliyev müraciətində vurğuladı ki, bu siyahıda Fransadan sonra onun yaxın müttəfiqi Ermənistan gəlir: "Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində basdırdığı minalar nəticəsində təkcə son 3 ildə 340-a yaxın azərbaycanlı mina qurbanı olub. Onların arasında mülki şəxslər də var. Bu iki ölkəni bir-birinə belə sıx bağlayan səbəblərdən biri də hər iksinin mina terroru ilə məşğul olmaq təcrübəsidir".

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir.

14 ölkənin, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərinin, həmçinin Korsikanın təmsilçilərinin iştirakı ilə düzənlənən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransda çıxış edən Korsika təmsilçisi Jean-Marc Rodriguez xalqının başına gətirilən müsibətlərdən danışdı. O, Fransanın illər boyu müstəmləkə altında saxlayaraq beynəlxalq cinayətlər törətdiyi Korsikada müstəqillik istəyənlərin ya həbs edildiyini, ya da öldürüldüyünü dedi.

Fransa müstəmləkəsinə çevirdiyi ölkələrdə yalnız torpaqları işğal altında saxlamır, həm də orada yaşayan yerli sakinlərin dilini, tarixini, mədəniyyətini təhrif edir, gənclərini öz soy-kökündən uzaqlaşdırmağa çalışır. Korsikada da eyni siyasətin həyata keçirildiyini Jean-Marc Rodriguez vurğuladı: "Mənim Vətənimdə azadlıq üçün cəsarətlə mübarizə aparan qəhrəmanlar var. Ancaq həmin şəxslərin adı bizim tarix kitablarımıza əlavə olunmayıb. Fransa öz koloniyalarında xalqların dilini, mədəniyyətini ləğv etmək, bizim millətçilik hisslərimizi məhv etmək istəyir. Repressiyalar Korsika xalqı üçün adi hala çevrilib. Fransa illər boyu bizə yalan vədlər versə də, Korsikada hakimiyyətə sadəcə Fransanın müəyyən etdiyi adamlar gəlir. Səsvermə və demokratiya Fransanın uzaq olduğu anlayışlardır. Bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirik".

Fransanın uzun illərdir davam edən müstəmləkə siyasətindən əziyyət çəkənlərin etiraz səsini beynəlxalq konfransında çıxışında Kaledoniya Birliyi Partiyasının baş katibinin müavini David Vanabo belə dilə gətirdi: "Biz Fransanın inteqrasiyasını, assimilyasiya istəmirik".

Suveren Martinika Uğrunda Demokratlar və Ekoloqlar Hərəkatını təmsil edən Klodet Düamel Fransanın ölkəsinin və xalqının azadlığı uğrunda mübarizə aparmağa çalışan Martinika gənclərini amansızcasına cəzalandırdığını diqqətə çatdırdı. Bildirib ki, son 400 ildə Fransa Martinika əhalisini nəinki azadlıqdan məhrum edib, həm də qəsdən əhalinin sağlamlığına çox böyük ziyan vurub. Klodet Düamel buna görə də indi təkcə azadlıq üçün deyil, həm də gələcək nəsillərin sağlamlığı üçün mübarizə apardıqlarını söylədi.

Beynəlxalq konfransdakı çıxışlarda Fransanın müstəmləkə siyasəti, ədalətsiz mövqeyi, qanunların aliliyini heçə sayması bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Fransanın işğalından, zülmlərindən qurtulmaq ən böyük arzuları olan xalqların nümayəndələrinin haqq səsinə beynəlxalq təşkilatların səs verəcəkləri təqdirdə ədalət yerini tutar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"`***



# Heydər Əliyev İli 2023

## Qarsda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan beynəlxalq konfrans keçirilib











"Azərbaycan Respublikasında 2023-cü ilin Heydər Əliyev ili elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncama uyğun olaraq Türkiyənin Qars şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

18-19 oktyabr 2023-cü ildə Qars Qafqaz Universiteti, Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğu, Diasporla İş Üzrə Dövlət Komitəsi, Elger Elm və Təhsil Mərkəzi, Əskişəhər Azərbaycanlılar Dərnəyi, Türkiyə-Azərbaycan dərnəkləri federasiyası, İğdır Azərbaycan Evinin təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və Türkiyə" adlı multidisiplinar beynəlxalq elmi konfransa 12 ölkədən 100-dən çox elm adamı qatılıb.

Dövlət müstəqilliyinin bərpasının 32-ci ildönümünə təsadüf edən Ulu Öndərin 100 illik yubiley mərasimi Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Qars Qafqaz Universitetinin rektoru professor Hüsnü Kapu və Azərbaycanın Qarsdakı baş konsulu Nuru Quliyevin giriş nitqləri ilə başlayan konfransın plenar iclasında tədbirin təşkilat komitəsinin sədri dosent İlkin Qulusoy, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təmsilçisi Müjdat Həsənov, Əskişəhər Azərbaycanlılar dərnəyinin sədri Cavid Aydın çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Azərbaycanın ali təhsil müəssisələri adından Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin prorektorlarının təbrik nitqləri dinlənilib.

Konfransın plenar iclasında professor Toğrul İsmayıl, professor Yusuf Bayraktar və dosent Elman Cəfərli mövzu ilə bağlı məruzələr edib, dahi öndərin Azərbaycançılıq və dövlətçilik irsi geniş təhlil olunub.

Üç bölmədə işini davam etdirən konfransda Ümummilli Lider Heydər Əliyevin dövlətçilik, elm, təhsil, mədəniyyət, ordu quruculuğu, gənclər siyasəti, multikulturalizm və digər sahələrdə həyata keçirdiyi islahatlardan bəhs olunub, foto və video təqdimatlar edilib.

Azərbaycandan iki universitetin - Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Surə Seyidin "Heydər Əliyev və "Şərq qapısı" qəzeti, Azərbaycan Dövlət İdman Akademiyasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Müjkan Məmmədzadənin "Heydər Əliyev və hərbi təhsil siyasəti" mövzusundakı elmi məruzələri maraqla qarşılanıb.

Məruzələrdən sonra konsert olub, Azərbaycan xalq musiqilərindən seçmələr səsləndirilib.

Konfrans çərçivəsində qonaqlar Qars Qafqaz Universitetində qurulan Heydər Əliyev Mərkəzini ziyarət edib, mərkəzin fəaliyyəti ilə tanış olublar.

Konfransdan sonra Azərbaycanın Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə konfrans iştirakçılarına ziyafət təşkil edilib, Qars Qafqaz Universitetində fəaliyyət göstərən "Azərbaycan rəqs qrupu"nun konsert proqramı nümayiş olunub.

Konfrans iştirakçılarına Heydər Əliyevin 100 illik yubiley plaketi və diplomlar təqdim edilib.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin Qarsa səfəri zamanı onun təşəbbüsü ilə Qars Qafqaz Universitetində Azərbaycan türkcəsi və ədəbiyyatı ixtisası yaradılıb. 18 ildir fəaliyyət göstərən bu ixtisasın bakalavriat pilləsi üzrə bugünədək yüzlərlə məzunu olub. 2014-cü ildən universitetdə magistratura pilləsi üzrə kadr hazırlığı işi həyata keçirilir.

***Surə SEYİD***

*Naxçıvan*

## "Azərişıq" türkdilli dövlətlərin energetiklərini Hadrutda bir araya topladı









"Azərişıq" ASC-nin təşkilatçılığı ilə Hadrutda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş türkdilli dövlətlərin gənc energetikləri arasında "Paylayıcı Şəbəkələrin Rəqəmsal Transformasiyası" I Beynəlxalq Peşə Ustalığı Yarışması keçirilib.

















Tədbirə Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Türkiyə və Özbəkistandan energetiklərdən ibarət komandalar qatılıb. Qardaş ölkə Türkiyədən iki komanda "Uludağ" və "Başkənt" yarışlarda iştirak edib.

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, yarış iştirakçıları ilk olaraq Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

Tədbir iştirakçıları daha sonra Hadruta yola düşüblər.

Yarışlardan əvvəl iştirakçı ölkələri təmsil edən nümayəndələrin və yerli energetiklərin iştirakı ilə Hadrutda "dəyirmi masa" keçirilib. "Azərenerji" və "Azərişıq" ASC-nin işğaldan azad edilmiş ərazilərdə elektroenergetika sahəsində tətbiq etdiyi innovativ yeniliklər və türkdilli ölkələrin energetikləri arasında gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Açılış mərasiminə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə start verildi. Daha sonra dövlət başçısı İlham Əliyevin tapşırıqları əsasında "Azərişıq" ASC tərəfindən işğaldan azad olunmuş ərazilərimizdə görülən yenidənqurma işləri haqda məlumat verilib. Həmçinin Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın elektroenergetikasının inkişafındakı müstəsna rolundan bəhs edən film nümayiş etdirilib. Rəsmi hissə başa çatdıqdan sonra gənc energetiklər arasında I Beynəlxalq Peşə Ustalığı Yarışmasına start verilib.

Yarışların ilk günündə elektroenergetikanın tarixi, inkişafı və müasir vəziyyəti mövzusunda tərtib olunan intellektual suallar cavablandırılıb. İntellektual yarışma başa çatdıqdan sonra xarici qonaqlar istifadəyə verilən Hadrut Qovşaq Yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi ilə tanış olublar. Tədbir iştirakçılarına ən müasir avadanlıqlarla təchiz edilən mərkəz haqda ətraflı məlumat verilib.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş türkdilli dövlətlərin gənc energetikləri arasında "Paylayıcı Şəbəkələrin Rəqəmsal Transformasiyası" I Beynəlxalq Peşə Ustalığı Yarışmasının ikinci günündə iştirakçılar peşə bacarıqlarını nümayiş etdiriblər. Qalib iştirakçılar müxtəlif nominasiyalar üzrə kubok və diplomlarla mükafatlandırılıblar.

Onu da qeyd edək ki, Tatarıstan Elektrik Şəbəkələr Şirkətinin baş direktoru İlşat Fardiyevin təklifi ilə Beynəlxalq Peşə Ustalığı Yarışması növbəti il Tatarıstanda təşkil olunacaq.







# Xarabalıqlarda tikilən "ağıllı kənd"lər 5-ci nəsil texnologiyalarla qurulur






Ermənistan Azərbaycanın qədim yurd yeri, zəngin mədəniyyət məbədi sayılan Qarabağda 30 il at oynatdı, yurd yerlərimizi viran qoydu. Faşizm ideologiyası ilə "yüklənən" ermənilər Azərbaycanın tarixini, mədəni irsini silməyə çalışaraq, Qarabağ ərazilərində kəndləri, şəhərləri, qəsəbələri, yaşayış binalarını, məktəbləri, xəstəxanaları, tarixi abidələri, məzarlıqları və məscidləri məhv etdilər.

Mənfur qonşularımız zaman-zaman soyqırımı törətdilər, dinc, əliyalın insanlara qarşı amansızlıq etdilər. İşğal etdikləri torpaqlarımızdan nə xoşluqla çıxdılar, nə də beynəlxalq hüquqa məhəl qoydular. Sonda silahlar işə düşdü. Heç vaxt məğlubiyyətlə barışmayan Azərbaycan 44 günlük müqəddəs Vətən müharibəsini zəfərlə başa vurdu. Tarixi zərurət olan bu zəfərin mənbəyi Prezident İlham Əliyevin son 20 ildə həyata keçirdiyi qətiyyətli siyasəti, cəsarətli addımları, güclü dövlət və ordu strategiyası qurması idi. Müzəffər ordumuz Azərbaycan xalqının tarixinə ən şanlı, şərəfli və qürurverici səhifəsini yazdı. Ordumuzun işğalçı erməni ordusuna qarşı apardığı 44 günlük müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi.

Zəfərdən sonra dərhal Qarabağda bərpa-quruculuq işləri start götürdü. İşğaldan azad edilən ərazilərimizdə sürətlə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, təməli qoyulan şəhərlər, kəndlər, ictimai binalar, obyektlər Qarabağın və Şərqi Zəngəzurun tezliklə çiçəklənən yurda çevrilməsi üçün zəmin yaratdı. Prezident İlham Əliyev öz əlləri ilə ötən üç ildə neçə-neçə kəndin, qəsəbənin, mühüm əhəmiyyətli infrastruktur obyektlərinin təməlini qoydu, xeyli obyektin açılış lentini kəsdi. Bu gün Qarabağda və Şərqi Zəngəzurda demək olar ki, həyat qaynayır.

Azad olunan ərazilərin bərpası, insanların yavaş-yavaş yuvalarına dönməsi Böyük qayıdış adlanır. Bu konsepsiyaya dağılmış şəhərlərin və binaların yenidən qurulması, "ağıllı kənd"lərin, eləcə də hava limanlarının tikintisi daxildir ki, bu da Azərbaycanın əsas prioritetlərindəndir. Qarabağ və Şərqi Zəngəzurda yeni infrastrukturun qurulması, evlərin tikilməsi, o cümlədən yolların və digər kommunikasiya sistemlərinin yaradılması istiqamətində aparılan sürətli işlər onu deməyə əsas verir ki, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın öz doğma yurd-yuvalarına qovuşmaları qarşıdakı illərdə də davam etdiriləcək.

Ağdam, Cəbrayıl və Füzuli şəhərlərinin baş planı hazırlanaraq təsdiq olunub. Digər şəhər və qəsəbələrin də baş planları hazırlanır. Plan üzərində çalışanlar şəhərlərdə müvafiq olaraq hotel, hava limanı, vağzal olmasını önə çəkirlər. Şəhər mərkəzlərində bank, iş yerləri, ticarət mərkəzləri, istirahət zonalarının fəaliyyətini qeyd edirlər. Baş planda işlənən həssas nöqtələrdən biri də həmin ərazilərdə müharibənin, tariximizin izlərini özündə əks etdirən binaların, muzeylərin yaradılmasıdır. Azərbaycanın memarlıq ənənələrini Qarabağda yaşatmaq adıçəkilən baş planlarda qırmızı xətlə keçir.

Qarabağda və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinin aparılması, lazımi infrastrukturun yaradılması, evlərinə qayıtmaq istəyən insanların yaxşı yaşaması üçün hər cür şəraitin təmin edilməsi dövlətin əsas vəzifələrindəndir. Ona görə də Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində işğaldan azad olunmuş ərazilərimizin yeni görkəmdə olması üçün Böyük qayıdışın bir parçası olan "ağıllı kənd" layihələri tətbiq olunmağa başladı. Bu konsepsiya haqqında dövlət başçısının söylədiyi fikirlər, irəli sürdüyü təşəbbüslər tezliklə öz təsdiqini tapdı. Qısa zaman kəsiyində ilk olaraq Zəngilanın Ağalı kəndi "ağıllı kənd" olaraq müasir yaşayış məskəninə çevrildi. Bu layihənin tətbiqi onu deməyə əsas verir ki, Ağalıda əhalinin rahatlığının və rifahının yüksək səviyyədə təmin edilməsi üçün informasiya-kommunikasiya texnologiyalarından maksimum istifadə edilir, tele-səhiyyə, e-təhsil və digər elektron xidmətlər üzrə innovasiyalar problemin həllini tezləşdirir.

Əslində, "ağıllı kənd" layihəsinin tətbiqində əsas məqsəd urbanizasiyanın qarşısını almaqdır. Kənd yerlərində yaşayan insanların həyat səviyyəsi yüksəldikcə onların şəhərə köçmək istəkləri sıfırlanır. Avropanın bir çox ölkəsində yaşayan gənclərin kəndləri tərk edib böyük şəhərlərə köç etməsi urbanizasiya prosesini sürətləndirir ki, bu da öz növbəsində ciddi iqtisadi, siyasi və ekoloji böhrana səbəb olur. Çıxış yolu "ağıllı kənd"dir, əlbəttə.

Bəs bir yaşayış məskəninin "ağıllı kənd" olması üçün nələr lazımdır? Bəri başdan deyək ki, müasir texnologiyaların olmadığı yerdə "ağıllı kənd" layihəsinin icrası mümkün deyil. Burada bütün sahələri əhatə edən elektron və rəqəmsal texnologiyalar tətbiq edilməlidir. Dövlət strukturlarının, özəl müəssisələrin və fərdi evlərin zəruri cihazlarla təminatı vacibdir. Rabitə əlaqələrinin qurulmasında həm simli, həm də simsiz texnologiyaların istifadəsi şərtdir. "Süni zəka" və robot texnikasından, eləcə də alternativ enerjidən istifadə olunmalıdır. Şəhərlərdəki sosial və mədəni obyektlər kəndlərdə də qurulmalıdır. Ən əsası və ən vacibi "ağıllı kənd"in mərkəzində "ağıllı fermer təsərrüfatı" dayanmalıdır. "Ağıllı kənd"lərdə ənənəvi suvarma üsullarını müasir suvarma sistemləri əvəz etməlidir. Dron texnologiyasının həm suvarma, həm də əkin işlərində geniş tətbiqi məhsul bolluğuna zəmanət verir. Heyvandarlıq sahəsində məsafədən idarəetmə genişləndirilməlidir. Heyvanların üzərinə yerləşdirilən cihazlarla onlara nəzarət imkanları artırılmalıdır. Məhsulun əkilməsində, biçilməsində və daşınmasında insan əməyi minimum səviyyəyə endirilərək, yerini müasir texnologiyalar tutmalıdır.

Bütün bu parametrlər 2021-ci ilin aprelində Prezident İlham Əliyevin təməlini qoyduğu Zəngilanın 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edən birinci "ağıllı kənd" layihəsində əksini tapıb. Burada tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi ev tikilib istifadəyə verilib. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də "ağıllı texnologiya"lar əsasında qurulub. Kənddə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunub. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin edilib. Kəndin təməlini qoyarkən Prezident İlham Əliyev Ağalının gələcəyi ilə bağlı fikirlərini belə söyləyib: "Burada yaşamaq üçün nə lazımdırsa olacaq. Burada tətbiq olunacaq texnologiyaların bir çoxu Azərbaycanda yoxdur. Bu, birinci layihədir, pilot layihədir və əminəm ki, maksimum gələn ilin əvvəlində bütün işlər hazır olacaq. Evlər tikilməlidir, kommunikasiyalar qurulmalıdır, ondan sonra iş yerləri yaradılmalıdır, əkin yerləri olmalıdır və burada yaşayacaq insanların hər biri işlə təmin edilməlidir".

Dövlət başçısının söylədikləri az müddətdə yerinə yetirildi. İlham Əliyev ötən il Ağalıda 200 evin açılışını etdi. Və bundan sonra kənddə həyat qaynamağa başladı. Bu gün Ağalı kəndində küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, günəş panellərinin quraşdırılması kimi müasir şəhərsalma standartları tətbiq olunub. Eləcə də kəndin daimi enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində su-elektrik stansiyası inşa edilib. Kənddə dövlət xidmətlərinə əlçatanlığı asanlaşdırmaq məqsədilə ASAN, DOST xidmətləri, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Aqrar İnkişaf Mərkəzi mövcuddur.

İkinci "ağıllı kənd" Füzulinin Dövlətyarlı kəndidir. Bu gün bir-birinə yaxın olan 5 kəndin birgəyaşayışının təmin olunması məqsədilə kənddə işlər tam sürətlə davam etdirilir. Dövlətyarlı böyük kənd olduğu üçün ilkin olaraq burada 450 evin tikintisinə başlanılıb. Köndələnçay su anbarının yaxınlıqda yerləşməsi imkan verir ki, burada balıqçılıq inkişaf etdirilsin. Ağalıda daha çox hidroenergetika stansiyasında suyun enerjisindən istifadə olunacaqsa, Dövlətyarlıda 50 hektarlıq sahədə qurulacaq günəş panellərinin hesabına kəndin enerji ehtiyacları tam təmin ediləcək.

"Ağıllı kənd" layihəsi çərçivəsində növbəti yaşayış məntəqəsi Ağdam rayonunun Baş Qərvənd kəndi olacaq. Prezidentin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəsi Emin Hüseynovun dediyinə görə, layihə çərçivəsində ərazisi 470 hektar olacaq Baş Qərvəndə birinci mərhələdə 917, növbəti dəfə isə 600 ailənin köçürüləcəyi nəzərdə tutulub.

Prezidentin işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulmas ilə bağlı bu fikirləri Qarabağın və Şərqi Zəngəzurun, bütövlükdə Azərbaycanın daha xoş günlərinin heç də uzaqda olmayacağını təsdiq edir: "Müharibə də, Dağlıq Qarabağ münaqişəsi də artıq tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdirsə, növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## 21 oktyabr ZƏFƏR gündəliyi 2020-ci il

Gecə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutur.



Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnika üzrə itki verərək geri çəkilməyə məcbur edilir.

5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilir, çoxlu sayda silah və sursat qənimət götürülür. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edilir. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar olur. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var. Döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılır.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutur.

❖ ❖ ❖



Saat 12:00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Horadiz istiqamətində məhv edilir.

❖ ❖ ❖

Saat 12:55-dən 13:30-dək Ermənistan silahlı qüvvələrinə məxsus daha 3 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilir.

PUA-dan ikisi cəbhənin Füzuli istiqamətində, biri isə Tərtər istiqamətində vurulub.

❖ ❖ ❖

Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb-qaçdığı, həmçinin bölmələrimiz tərəfindən məhv edilən növbəti hərbi texnikalarını nümayiş etdirir.




❖ ❖ ❖

Prezident İlham Əliyev rəsmi "X" səhifəsində xalqa ard-arda müjdəli xəbərlər verir.

Prezdentin ilk paylaşımında qeyd edilir: "Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Ali Baş Komandanın növbəti paylaşımında isə qeyd edilir:

"Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verir. Dövlət başçısı vurğulayır ki, artıq vəziyyət dəyişib. Satus-kvo, təmas xətti mövcud deyil. Ona görə də indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır:

"Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu mümkün olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik".

Prezident həmçinin deyir ki, Ermənistanın "cəsur ordusu" haqqında bütün mifləri sadəcə bir növ feyk idi. Çünki bu gün həmin ordu Azərbaycanın igid oğulları qarşısında tab gətirməyərək geri qaçır: "Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## "Mustafa Kamal Atatürk - 2023" təliminə hazırlıq məşqləri keçirilir



Ölkəmizdə keçiriləcək Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunmuş "Mustafa Kamal Atatürk - 2023" birgə taktiki təliminə hazırlıq məşqləri davam edir.

Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) təlimə cəlb olunan bölmələri daimi dislokasiya məntəqələrini tərk edərək ərazidə yerdəyişmə etməklə texnikanın döyüş tətbiqinə hazırlanması üzrə normativləri icra ediblər. İki qardaş ölkənin hərbi qulluqçularının, döyüş texnikası və aviasiya vasitələrinin cəlb edilməsi ilə oktyabrın 23-25-də keçiriləcək birgə təlimdə əsas məqsəd qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının daha da artırılmasıdır.

## Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2027-ci illədək 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2022-2026-cı illər ərzində 24 kəndin tikilməsi planlaşdırılıb.



AZƏRTAC xəbər verir ki, bu barədə Şərqi Zəngəzur İqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin Böyük qayıdışa töhfələri" mövzusunda paneldə bildirib. Onun sözlərinə görə, Böyük qayıdışa dair 1-ci Dövlət Proqramına görə 2022-2026-cı illər ərzində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 3 şəhər mərkəzi, 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb.

İcraçı direktor qeyd edib ki, Böyük qayıdışın ilk ünvanı sayılan Zəngilan rayonunun Ağalı kəndi artıq məskunlaşıb. Belə ki, kəndə 649 nəfərdən ibarət 133 ailə köçürülüb.

# Energetiklər Günü ilə bağlı tədbirlər keçirilib





20 Oktyabr Energetiklərin Peşə Bayramı Günü Energetika Nazirliyi, "Azərenerji" və "Azərişıq" ASC-lərin rəhbər heyəti Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb. Şəhidlər xiyabanı da ziyarət olunub.

Daha sonra "Azərenerji"nin Baş İdarəetmə Mərkəzində Energetiklər Günü ilə bağlı tədbir keçirilib. "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev çıxış edərək builki Energetiklər Gününün çox əlamətdar vaxta təsadüf etdiyini bildirib. "Əvvəla ona görə ki, 5 gün əvvəl 15 oktyabr tarixində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev şanlı bayrağımızı Xankəndi, Ağdərə, Xocalı, Xocavənd rayonlarında ucaltdı. Digər tərəfdən, məhz həmin gün, 15 oktyabr tarixi həm də cənab Prezident İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyinə təsadüf edirdi. Ötən 20 il ərzində Azərbaycan tarixinin ən inkişaf etmiş və güclü dövlətinə çevrildi. Bütün sahələrdə olduğu kimi, elektroenergetikamızın bugünkü səviyyəyə çatması, Azərbaycanın sayılıb-seçilən enerji dövləti titulunu alması, ən müasir texniki avadanlıqlarla təchiz olunaraq rəqəmsallaşdırılması, alternativ və bərpaolunan enerjinin prioritet sahəyə çevrilməsi, qırxa yaxın yeni elektrik stansiyasının tikilməsi, yüzdən artıq yarımstansiyanın yenidən qurulması, min kilometrlərlə müxtəlif gərginlikli ötürmə xətlərinin çəkilməsi, hazırda ölkədə istehsal olunan enerjinin 20 faizə yaxın hissəsinin ixrac edilməsi və digər bu kimi məsələlər cənab Prezident İlham Əliyevin davamlı enerji strategiyasının həyata keçirilməsinin təzahürüdür".

Baba Rzayev bildirib ki, cənab Prezident İlham Əliyevin xüsusi diqqəti və enerji strategiyasına uyğun olaraq bu günə kimi Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə yarımstansiya tikilərək istismara verilib. 700 kilometrdən artıq 330 və 110 kV-luq yüksəkgərginlikli ötürmə xətti çəkilərək işğaldan azad edilən bütün ərazilərə 100 faiz enerji çatdırılıb. Ən əsası bütün yarımstansiyalar Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Eyni zamanda cənab Prezidentin işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq bu günə kimi 14 yerdə suelektrik stansiyası tikilərək yenidən qurulub və hazırda 3 SES-də işlər tamamlanır və 9 yerdə tikinti davam edir. Eyni zamanda suverenliyimiz bərpa edilən ərazilərdə stansiya və yarımstansiyalar bərpa edilir.

Tədbirdə çıxış edənlər bildirib ki, bu gün Azərbaycanın energetika sektoru dünyanın bir çox ölkələrinə, o cümlədən inkişaf etmiş ölkələrinə nümunə göstəriləcək səviyyədədir. Bu isə heç şübhəsiz, cənab Prezident İlham Əliyevin elektroenergetika ilə bağlı həyata keçirdiyi uğurlu enerji strategiyasının, davamlı diqqət və qayğısının nəticəsidir.

Bütün bunlara görə çoxminlik "Azərenerji" kollektivi adından cənab Prezidentə xüsusi minnətdarlıq və sonsuz təşəkkürlər ifadə olunub.


# OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” qəzetinə

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Azərmətbuatyayımı” ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Nur şəhərində energetiklər bayramlarını qeyd ediblər

"Azərenerji" ASC-nin, Mingəçevir şəhər İcra Hakimiyyətinin və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə şəhərin 75 illiyinə və 20 oktyabr - Energetiklər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Azərbaycan İES-in, SES silsiləsinin, regional elektrik şəbəkəsinin kollektivləri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuşlar.





Tədbir Azərbaycan İES-in ərazisində davam etdirilib. İştirakçılar burada Ulu Öndər Heydər Əliyevin, şəhidlərin və Vətən müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış abidələri ziyarət etmişlər. Sonra xüsusi tərtibatla hazırlanmış akt zalında elmi-praktik konfrans keçirilmişdir. Azərbaycan İES MMC-nin direktoru Təhmasib Hüseynov iştirakçıları salamlayaraq, energetikləri peşə bayramları münasibəti ilə təbrik etmiş, ən xoş və səmimi arzularını çatdırmışdır. Ardınca energetik gününə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir. "Azərenerji" ASC-nin nəzarət idarəsinin rəisi Səməd İslamov "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevin konfrans iştirakçılarına təbriklərini çatdırmışdır.

Tədbirdə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək, Azərbaycan energetikasının inkişafında xüsusi xidmətlər göstərən Ulu Öndər Heydər Əliyevin Mingəçevirə göstərdiyi diqqət və qayğıdan, hakimiyyətinin ilk dövründə nəhəng enerji stansiyasının Azərbaycanın gənclik şəhəri olan Mingəçevirdə tikilməsinə nail olmasından danışıb. Stansiyanın birinci blokunun istifadəyə verilməsində şəxsən iştirak etməsini xüsusilə vurğulayan natiq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini bildirib. Qeyd edib ki, ölkəmizi nura qərq edən Mingəçevirdə cari ilin fevral ayında məhz, dövlət başçısı tərəfindən yeni stansiyanın təməli qoyulub. Bütün bu uğurlar Azərbaycanın müstəqillik tarixinin, energetikamızın şərəfli səhifəsidir. Biz bu uğurlara görə Ali Baş Komandanımızın rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı erməni faşistlərini torpaqlarımızdan qovub çıxaran Milli Ordumuzun əsgər və zabitlərinə minnətdarıq. Şəhər İcra hakimiyyətinin başçısı deyib ki, bu gün Azərbaycan dünayda öz sözünü deyən, nüfuz qazanan bir ölkə kimi tanınır və bu da Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasətinin nəticəsidir. Azərbaycan energetikasının flaqmanı olan İstilik Elektrik Stansiyası və Mingəçevir SES-in birgə fəaliyyəti nəticəsində on illərdir ki, respublikamızın iqtisadiyyatının dinamik inkişafı davam edir. Fərəhlə qeyd edilməlidir ki, müstəqillik dövründə elektrik enerjisi istehsalının 84,5 faizi məhz bu müəssisələrin payına düşür. Mingəçevirin şəhər statusu almasının 75 illiyi ərəfəsində keçirilən bu konfrans bir daha öz əlamətdarlığı ilə seçilir.

İlham İsmayılov şəhərin 75 illiyi və energetiklərin peşə bayramı günü münasibəti ilə tədbir iştirakçılarını ürəkdən təbrik edib, bütün şəhər sakinlərinə ən səmimi istək və arzularını bildirib.

Konfransda məruzələr dinlənilib. Mingəçevir Dövlət Universitetinin energetika kafedrasının müdiri, dosent Ülkər Aşurova, Mingəçevir Dövlət Universitetində çalışan türkiyəli professor Cemal Yılmaz "Azərbaycanın müstəqil elektrik enerjisi sənayesinin qurulmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri", "Enerjinin müasir cəmiyyətin inkişafına və mədəniyyətinə təsiri" mövzularında məruzlərlə çıxış ediblər. Konfransda bir qrup energetikə "Azərenerji" ASC-nin fəxri fərmanları təqdim olunub.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# İrəvanda silahlı qarşıdurma ehtimalı artır

## Etirazçılar separatçıların yerləşdiyi binaya hücum ediblər







İrəvanda separatçılar arasında qarşıdurma gündən-günə gərginləşir. Vəziyyət o həddədir ki, separatçılar arasında gərginlik silahlı qarşıdurmaya çevrilə bilər. Böyük ehtimalla, onların yaxın günlərdə bir-birilərinə güllə atacaqları proqnozlaşdırılır.

Dünən isə Qarabağ erməniləri oktyabrın 1-dən dövlət sektorunda çalışan işçilərin maaşlarının ödənilməməsinə görə etiraz aksiyası keçiriblər. Separatçı Samvel Şahramanyanın açıqlamalarından razı qalmayan etirazçılar onun qardaşı Karenin ərazidə olduğunu görüb, hücum edərək döyüblər.

Vətəndaşlar etiraz aksiyasından sonra Qarabağ separatçılarının İrəvandakı "nümayəndəliyi"nin binasına daxil olublar. Onlar Qarabağın qondarma qurumlarının işçilərinə maaşların verilməsinin dayandırılmasına etiraz ediblər. Samvel Şahramanyan ermənilərdən birinə yaxınlaşaraq "indi gəlib, sənin kəlləni qoparacağam" deyib. Bundan sonra qarşıdurma baş verib. Polis müdaxilə etdikdən sonra ara sakitləşib.

Qarabağ separatçılarının liderlərindən biri, əli yüzlərlə azərbaycanlının qanına batan Samvel Babayan Hayastana qaçmağı bacarsa da, orada da yaxşı qarşılanmayıb. Ona qarşı münasibət çox pisdir. Belə ki, onu məğlubiyyətdə günahlandırırlar və hesab edirlər ki, ermənilərin Qarabağı tərk etməsində bu cinayətkar ünsürün xüsusi rolu var.

Samvel Babayanla uzun müddət bir yerdə olan bəzi hərbçilər də bu qulduru ittiham edirlər. İşğal olunan ərazilərdə şəhər və kəndlərin dağıdılmasında birbaşa rol oynayan Samvel Babayanı həm də narkotik plantasiyalarına görə ittiham edən Qarabağ erməniləri onun cəzalanmasını tələb edirlər.

Erməni hərbçi Vahan Badasyan bildirib ki, məğlubiyyətin əsasını Samvel Babayan kimi adamlar qoyub. O, öz yalanları ilə indiki nəsli manipulyasiya etməyə, aldatmağa çalışır. Amma bu cinayətkarın səyləri heç bir nəticə verməyəcək: "Bütün cinayətlərin əsasını Samvel Babayan qoyub. Samvel Babayan etdiyi vəhşiliklərə görə cəzasız qaldığını unutmasın. Onun özünə erməni deməyə haqqı yoxdur. Babayan əsl erməni kişilərini necə qarət etdiyini, əzdiyini, öldürdüyünü yadına salsın. Samvel Babayan talançı və saxtakardır. Hektarlarla narkotik plantasiyalarından milyonlarla dollar qazanıb. Bütün erməniləri narkotik aludəçisinə çevirmək niyyətindəydi. O, hakimiyyətə gəlmək istəyirdi. Niyyətinə çata bilməyəndə isə qışqırmağa başladı. Samvel Babayan bildirir ki, döyüşüb, hətta həbsxanada da yatıb. O, həbsxanaya Qarabağ uğrunda döyüşdüyünə görə deyil, Hayastan prezidentinə qarşı uğursuz sui-qəsd təşkil etdiyinə görə düşüb".

Göründüyü kimi, iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər ara qızışdıranların etiraz aksiyaları keçirməsi, erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ümumdünya Dostluq Oyunlarına 30 idman növü daxildir

## Yarışların dörd ildən bir təşkili planlaşdırılır

Gələn il Moskvada və Yekaterinburqda keçirilməsi planlaşdırılan Ümumdünya Dostluq Oyunlarının yarış proqramına 30 idman növü daxil ediləcək və turnirdə 10 minə yaxın idmançı iştirak edə biləcək. Bu barədə Beynəlxalq Boks Assosiasiyasının rəhbəri Umar Kremlyov oktyabrın 19-da "Rusiya idman ölkəsidir" forumunda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə bildirib.

Kremlyov deyib ki, təxmini hesablamalara görə, yarışlarda 10 minə yaxın idmançı, 200-ə yaxın idman növü olacaq. 247 dəst mükafat nəzərdə tutulub, onların sayı artacaq.

Bildirildiyinə görə, qarşıdan gələn oyunların proqramına daxil edilmiş 30 idman növündən 20-si Olimpiya, 10-u qeyri-olimpiyadır. Bundan əlavə, daha 14 növün əlavə olunması nəzərdən keçirilir.

Ümumdünya Dostluq Oyunları ilk dəfə 2024-cü ilin sentyabrında Moskva və Yekaterinburqda keçiriləcək. Yay turnirinin dörd ildən bir keçirilməsi planlaşdırılır.

Oktyabrın 19-21-də Perm şəhərində "Rusiya idman ölkəsidir" forumu keçirilir. Prezidentin iştirakı ilə keçirilən plenar iclasdan əlavə, kütləvi və uşaq idmanının inkişafı, eləcə də ölkənin yeni regionlarının inteqrasiyası məsələlərinin müzakirəsi də daxil olmaqla onlarla sessiya keçiriləcək.

Həmçinin forumda Umar Kremlyov Qırmızı meydanda idman paradlarının bərpası və 2024-cü ilin "İdman ili" elan edilməsi təşəbbüsü ilə çıxış edib. Vladimir Putin bu təklifin yaxşı ideya olduğunu bildirib.

İdman forumunun plenar iclasında dövlət başçısı bildirib ki, ölkənin idman sahəsində məqsədlərindən biri 2030-cu ilə qədər rusiyalıların 70 faizini idmana cəlb etməkdir. O, bu sahənin dövlətin əsas prioritetlərindən biri olmaqla yanaşı, milli inkişaf hədəflərinin ən mühüm komponentlərindən olduğunu vurğulayıb.

Qeyd edək ki, hazırda Cənubi Afrika Respublikasında keçirilən BRİKS Oyunları və planlaşdırılan digər beynəlxalq turnirlər Qərbin idman sahəsində Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara cavabdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**ARİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova bacısı

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5317
Sifariş 2709

Qiyməti 40 qəpik